**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SOSİOMƏDƏNİ SİSTEMLƏRİN İNKİŞAF DİNAMİKASI BƏŞƏRİYYƏTİN İNTELLEKTUAL TƏKAMÜLÜ KONTEKSTİNDƏ

İxtisas: 7207.01- Sosial fəlsəfə

Elm sahəsi: Fəlsəfə

İddiaçı: **Rövşən Sabir oğlu Hacıyev**

Fəlsəfə elmləri doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun "Sosial fəlsəfə və ekoloji problemlər" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: Fəlsəfə elmləri doktoru, professor
**Əbülhəsən Fərhad oğlu Abbasov**

Rəsmi opponentlər: Fəlsəfə elmləri doktoru, professor
**Əlikram Mirhəsən oğlu Tağıyev**

Fəlsəfə elmləri doktoru, professor
**Qalib Nəcmi oğlu Barxalov**

Fəlsəfə elmləri doktoru, professor
**Məmməd Arif oğlu Əliyev**

Fəlsəfə elmləri doktoru, professor
**Qızılgül Yasin qızı Abbasova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Fəlsəfə elmləri doktoru, professor
**İlham Ramiz oğlu Məmmədzadə**

Dissertasiya şurasının elmi katibi: Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Arif qızı Həsənova**

Elmi seminarın sədri: Fəlsəfə elmləri doktoru, dosent
**Afaq Baloğlan qızı Rüstəmova**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Tarixi prosesin və ya sosial təkamülün aktiv subyektləri kimi çıxış edən sosiomədəni sistemlərin, yəni qəbilələrin, etnosların, tayfaların, dövlətlərin və bu kimi digər insan birliklərinin təşəkkülü və inkişafı məsələləri fəlsəfə yaranan dövrdən etibarən daim dünya şöhrətli filosofların, alim və mütəfəkkirlərin diqqətini çəkmiş, onların tədqiqat mövzusu olmuşdur. Onlar bu problemlərin dərki və həlli yolunda müxtəlif yönlü, yəni materialist, idealist və dualist əsaslı nəzəriyyə və konsepsiyaların yaradılmasına səy göstərmiş və bu istiqamətdə bəşər elminə əhəmiyyətli töhfələr verməyi bacarmışlar. Qaldırılan məsələlərə maraq göstərən filosoflar sırasında Platonun, Aristotelin, İbn Xəldunun, T.Hobbsun, A.Sen-Simonun, G.Hegelin, K.Marksın, K.Yaspersin, P.Sorokinin, İ.Vallerstaynın və bu kimi digər böyük mütəfəkkirlərin adlarını çəkməklə yanaşı bildirmək istərdik ki, sosiomədəni sistemlərin tarixi inkişaf yolunun araşdırılmasına həsr edilən hazırkı mövzu maraqlı və diqqətəlayiq olması ilə yanaşı, indi də öz həllini gözləyən mürəkkəb məqamları ilə səciyyələnməkdə və bu səbəblərdən aktuallığını saxlamaqdadır.

İnsan sosial varlıq kimi müxtəlip tipli sosiomədəni sistemlərdə formalaşdığı səbəbindən onların təşəkkül tarixini, inkişaf xüsusiyyətlərini üzə çıxarmaq olduqca əhəmiyyətlidir. Bu gün hər bir insanın qarşısına çıxan problemləri aradan qaldırmaq (məsələn sağlamlığını qorumaq) və gələcəkdə qarşılaşa biləcəyi hadisələri öncədən görmək baxımından onun keçmişini bilmək və dərk etmək nə qədər vacibdirsə, tarixi prosesdə meydana gəlmiş sosiomədəni sistemlərin təşəkkül səbəblərini, onların inkişaf dinamikasını öyrənmək də eyni dərəcədə əhəmiyyətlidir. Bu kontekstdə F.Nitsşenin bir fikri diqqət çəkir: "*Həyatın nə dərəcədə tarixin xidmətindən yararlana bilməsi sualına cavab vermək olduqca vacib bir məsələdir, çünki insanın, xalqın və mədəniyyətin varlığının qorunması istəyi ilə bağlıdır*".[1] Hegelə görə, predmetin dərk edilməsi

---

[1] Ницще, Ф. О пользе и вреде истории для жизни / Ф. Ницще. – Соч. в 2-х томах, – Москва: Мысль, – Т.1. – 1990. – с. 168.

onun keçdiyi inkişaf yolunu öyrənmədən mümkün deyil.[2] Rus tarixçisi V.O.Klyuçevskiyə görə isə, "*…əcdadlarımızı öyrənməklə biz, özümüzü tanıyırıq. Tarixi şüur olmadığı təqdirdə özümüz barədə bu dünyaya nə üçün gəldiyimizi, necə və nə üçün yaşadığımızı, haraya getdiyimizi bilməyən təsadüflər təsəvvürü yarana bilər*".[3] Yuxarıda söylənilən fikirlər belə deməyə əsas verir ki, dissertasiyanın mövzusu həlli mühüm və aktual olan fəlsəfi problemlərdən biri kimi dəyərləndirilə bilər. Dissertasiyanın mövzusu, heç şübhəsiz ki, gələcəkdə də öz aktuallığını saxlayacaqdır, çünki bəşəriyyətin tarixi keçmişini bilmədən, insanların formalaşdığı sosiomədəni sistemlərin təşəkkül və inkişaf qanunauyğunluqlarını öyrənmədən gələcəkdə baş verəcək hadisələrin də hansı istiqamətdə cərəyan etməsini anlamaq çətin olardı. Təsadüfi deyildir ki, hazırda ictimai inkişafın müasir vektoru kimi dəyərləndirilən qloballaşma prosesinin hansı səbəbdən yaranması və onun mahiyyətinin dərk olunması mütəxəssislər arasında fikir ayrılığının yer alması ilə səciyyələnməkdədir.[4] Hesab edirik ki, qloballaşma prosesinin mahiyyətini anlamaq üçün bəşəriyyətin keçdiyi ictimai inkişaf yolunun araşdırılmasına, bu istiqamətdə elm tərəfindən artıq aşkar edilən, lakin təzahür səbəbləri hələ də aydın olmayan qlobal əhəmiyyətli tarixi hadisələrin qaranlıq səhifələrinin bir daha işıqlandırılmasına ehtiyac vardır. Bu məqamlardan bəziləri əvvəlki tədqiqatlarımızda artıq nəzərdən keçirilmişdir və bir qismi də hazırkı dissertasiya işinin predmetini təşkil edir.[5]

---

[2] История философии (учебник для ВУЗ) / Ответственные редакторы: В.П. Кохановский, В.П. Яковлев. – Ростов-на-Дону: Феникс, – 2001. – с. 194

[3] Ключевский, В.О. Письма. Дневники. Афоризмы и мысли об истории / В.О. Ключевский. – Москва: Наука, – 1968. – с. 332.

[4] Hacıyev, R.S. Qloballaşmanın mahiyyətinə dair // − Bakı: Fəlsəfə. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, − 2009. №1-2(13), − s. 73.

[5] Hacıyev, R.S. Tarixi prosesin inkişaf dinamikası və ya qloballaşmaya aparan intellektual təkamül yolu / R.S. Hacıyev. − Bakı: Xəzər Universiteti, − 2015. − 352 s.; Гаджиев, Р.С. Философский анализ исторического процесса: в поисках закономерности // – Элиста: Научный журнал Вестник Калмыцкого Университета, – 2016. №3(31), – с. 86-92.; Hajiyev, R.S. On a regularity of the

Tarixi prosesin problemli məqamlarından biri sosial təkamülün ilk aktiv subyeklərindən olan qəbilənin nə vaxt və necə yaranması məsələləri ilə bağlıdır. Tədqiqatlarımızın gedişi göstərir ki, bu məsələlərin çözümündə mütəxəssislər arasında bu günə kimi ortaq fikir və ya müəyyənlik əldə edilməmişdir.

İctimai inkişafın çətin anlaşılan problemlərindən biri də ailə institutunun tarixi prosesin hansı dövründən etibarən təşəkkül tapması məsələsi ilə bağlıdır. Bu məsələnin çözümündə də mütəxəssislər arasındakı fikir ayrılığı diqqət çəkir.

Eyni fikirləri, yəni sosiomədəni sistemlərin tarixi inkişafının dərki ilə bağlı mütəxəssislər qarşısında dayanan çətinlikləri sosial təkamülün digər aktiv subyektləri olan etnoslar və tayfaların nə vaxt və necə təşəkkül tapması məsələlərinə də şamil etmək olar. Bu günə kimi tam aydın deyildir ki, etnoslar tarixi prosesin hansı dövründən etibarən meydana gəlmişlər. Bu barədə irəli sürülən baxışlardakı kəskin fikir ayrılığı diqqəti cəlb edir.

Tarixi prosesdə ilk dövlətlərin yaranması məsələsi də bu gün öz aktuallığını saxlamaqdadır. Uzun illər filosoflar və mütəxəssislər dövlətin meydana gəlməsinin müxtəlif səbəblərini göstərsələr də, bu məsələnin araşdırılması işində hələ də ziddiyyətli məqamlar özünü büruzə verməkdə, problemin çözümü dolğun həllini gözləməkdədir. Tanınmış amerikalı sosial-antropoloq R.L.Karneyro öz məqaləsində bildirir ki, "*İndiyə kimi dövlətin təşəkkülü məsələsini araşdıran heç bir nəzəriyyə qaneedici sayıla bilməz. Bu və ya digər aspektdə onlara müəyyən qüsurlar xasdır*".[6] Tarixi prosesdə ilk dəfə xalqların necə formalaşması məsələsi də öz aktuallığını saxlayan problemlər sırasındadır.

Eyni fikirləri ilk sivilizasiyaların meydana gəlməsi probleminə də şamil etmək olar. Sivilizasiyaların təşəkkülü məsələsində filosof və mütəxəssislərin eksternalist yanaşmadan irəli

---

intellectual evolution of mankind // – Sofia: Balkan Journal of Philosofy, – 2020. №2(12), – pp. 99-110.

[6] Карнейро, Р.Л. Теория происхождения государства / Раннее государство, его алтернативы и аналоги, – Волгоград: Учитель, – 2006. – с. 55.

gəlməsi, xüsusən coğrafi mühit faktorundan çıxış etməsi cəhdləri problemin ziddəyyətsiz çözümü baxımından qaneedici deyildir.

Bütün yuxarıda qeyd edilən məqamlar dissertasiya işinin aktuallığını və əhəmiyyətini üzə çıxarır, məhz hansı səbəblərdən hazırkı tədqiqat mövsuzunun seçilməsi məsələsinə aydınlıq gətirir.

Bəşəriyyətin sosial təkamülündə tarixi prosesin ilk aktiv sosiomədəni subyektləri kimi ibtidai icma və qəbilə çıxış etmişdir. İbtidai icmanın və qəbilənin təşəkkülü məsələsi XIX əsrdə L.Morqan, C.F.Mak-Lennan, F.Engels, E.Teylor, C.Frezer kimi tanınmış alim və mütəfəkkirlərin tədqiqat mövzusu olmuşdur.[7] XX əsrdə bu mövzu B.Malinovskiy, A.R.Redkliff-Braun, K.Levi-Stross, C.P.Merdok, P.P.Yefimenko, A.M.Zolotaryov, N.A.Butinov, P.İ.Boriskovskiy, V.P.Alekseyev kimi görkəmli alimlərin elmi fəaliyyətində əhəmiyyətli yer tutmuşdur.[8] XXI əsrdə toxunduğumuz

---

[7] Морган, Л. Древнее общество или Исследование линий человеческого прогресса от дикости через варварство к цивилизации / Л. Морган. – Ленинград: Издательство народов севера, – 1935. – 350 с.; McLennan, J.F. Studies in Ansient History / J.F. McLennan. London: Makmillan, – 1886. – 388 p.; Энгельс, Ф. Происхождение семьи, частной собственности и государства / Ф.Энгельс. – Москва: Политиздат, – 1989. – 224 с.; Тайлор, Э.Б. Первобытная культура / Э.Б. Тайлор. – Москва: Политиздат, – 1989. – 573 с.; Фрэзер, Дж. Золотая ветвь. Новые плоды, / Дж. Фрэзер. – Москва: Академический Проект, – 2014. – 410 с.

[8] Малиновский, Б. Избранное: Аргонавты западной части Тихого океана / Б.Малиновский. – Москва: РОССПЭН, – 2004. – 552 с.; Рэдклифф-Браун, А.Р. Структура и функция в примитивном обществе / А.Р. Рэдклифф-Браун. – Москва: Восточная литература РАН, – 2001. – 305 с.; Леви-Стросс, К. Структурная антропология / К. Леви-Стросс. – Москва: ЭКСМО-Пресс, – 2001. – 512 с.; Мердок, Дж.П. Социальная структура / Дж. Мердок. – Москва: ОГИ, – 2003. – 608 с.; Ефименко, П.П. Первобытное общество / П.П. Ефименко. – Ленинград: Соцэкгиз, – 1938. – 636 с.; Золотарев, А.М. Родовой строй и первобытная мифология / А.М. Золотарев. – Москва: Наука, – 1964. – 328 с.; Бутинов, Н.А. Первобытнообщинный строй (основные этапы и локальные варианты) / Проблемы истории докапиталистических обществ, – Москва: Наука, – 1968. – с. 80-155.; Борисковский, П.И. Древнейшее прошлое человечества / П.И. Борисковский. – Москва: Наука, – 1980. – 240 с.; Алексеев, В.П. Становление человечества / В.П. Алексеев. – Москва: Политиздат, –1984. – 462 с.

məsələlərin araşdırılmasına göstərilən maraq bir qədər azalmışdır. Son tədqiqatlardan O.Y.Artyomovanın monoqrafiyasını, eləcə də N.Yoffinin, V.V.İlyuşinanın, Q.Q.Filippovun, S.N.Popovun məqalələrini misal çəkmək mümkündür.[9]

Ailə və nikah institutunun tarixi təşəkkülü və inkişafı problemləri XIX əsrdən etibarən alim və mütəfəkkirlərin diqqət mərkəzində olmuşdur. Bu istiqamətdə xüsusən Y.Y.Baxofenin "Ana hüququ" əsəri, eləcə də adları yuxarıda qeyd edilən C.F.Mak-Lennanın və F.Engelsin fikirləri sonrakı tədqiqatlar üçün böyük təkan vermişdir.[10] XIX əsrin sonlarında bu istiqamətdə aparılmış elmi tədqiqatlardan xüsusən fransız K.N.Starkenin, fin sosioloqu E.Vestermarkın və rus tədqiqatçısı A.N.Maksimovun əsərlərini misal çəkmək olar.[11] Sovet dövründə bu məsələyə həsr olunmuş tədqiqatlar içərisində S.A.Tokarevin məqaləsini və S.Y.Volfsonun monoqrafiyasını qeyd etmək mümkündür.[12] Eyni zamanda ailə və

---

[9] Артемова, О.Ю. Колено Исава: Охотники, собиратели, рыболовы (опыт изучения альтернативных социальных систем) / О.Ю. Артемова. – М.: Смысл, –2009. – 560 с.; Yoffee, N. Too Many Chiefs? (Or, Safe Texts for the '90s) / Archaeological Theory: Who Sets the Agenda? Cambridge University Press, – 1993. – pp. 60–78.; Илюшина, В.В. Проблема реконструкции социальной организации древних обществ (историографические аспекты) // – Тюмень (Россия): Вестник археологии, антропологии и этнографии. – 2008. № 8, – с. 121-126.; Филиппов, Г.Г. Социальная организация в докапиталистическую эпоху // Управленческое консультирование. Актуальные проблемы государственного и муниципального управления. – 2008. №3 (31), – с. 173-202.; Попов, С.Н. Самоуправление в догосударственных обществах // – Челябинск: Вестник Челябинского государственного университета. – 2007. №17, – с. 63-70.

[10] Бахофен, И.Я. Матриархат / И.Я. Бахофен. – Москва: CHAOS/PRESSS, – 2018. – 442 с.

[11] Старке, К.Н. Первобытная семья, ее возникновение и развитие / К.Н. Старке. – С.-Петербург: Издание Л.Ф. Пантелеева, – 1901. – 385 с.; Вестермарк, Э. История брака / Э. Вестермарк . – Москва: Д.П. Ефимов, – 1896. – 237 с.; Максимов, А.Н. Избранные труды / А.Н. Максимов. – Москва: Восточная литература, – 2001. – 544 с.

[12] Токарев, С.А. О системе родства у австралийцев (к вопросу о происхождении семьи) // – Москва: Этнография, – 1929. №1, – с. 23-53.;

nikah institutunun tarixi təşəkkül və inkişaf dinamkasının daha ətraflı şəkildə araşdırılmasıişi professor Y.İ.Semyonovun monoqrafiyasında həyata keçirilmişdir.[13] Aparılan təhlillər onu deməyə əsas verir ki, nə ailənin təşəkkülü problemi, nə də nikahın tarixi tiplərinin inkişaf dinamikasına dair məsələlər hələ də birmənalı həllini tapa bilməmişdir. Toxunulan mövzuya dair son dövrün azsaylı tədqiqatlarından isə professor O.Y.Artyomovanın məqaləsini qeyd etmək olar.[14]

Etnos və tayfanın tarixi təşəkkülü və inkişafı məsələləri XIX əsrdən etibarən tanınmış alim və mütəfəkkirlərin geniş tədqiqat mövzusu olmuşdur. Burada bir məqamı xüsusilə qeyd etmək lazımdır ki, XIX əsrdən başlayaraq bu günə kimi həm dünyada, həm də postsovet məkanında “etnos” və “tayfa” anlayışlarının differensiasiyası işi öz aydın və birmənalı həllini tapa bilməmişdir. Tanınmış mütəxəssis V.A.Şnirelmanın qeyd etdiyimiz məsələyə həsr olunmuş xüsusi tədqiqatı, eləcə də professor V.A.Popovun məqaləsi bu barədə ətraflı məlumat verir.[15] Bu istiqamətdə, yəni “etnos” və “tayfa” anlayışlarının məzmununa aydınlıq gətirilməsi məqsədilə iddiaçı tərəfindən bir sıra metodoloji əhəmiyyətli məqalələr çap edilmişdir.[16] Etnos və tayfanın təşəkkülü ilə bağlı məsələlərin

---

Вольфсон, С.Я. Семья и брак в их историческом развитии / С.Я. Вольфсон. – Москва: Соцэкгиз, –1937. – 244 с.

[13] Семенов, Ю.И. Происхождение брака и семьи / Ю.И. Семенов. – Москва: Мысль, – 1974. – 309 с.

[14] Артемова, О.Ю. Отечественная теория «первобытности» и социальная организация австралийских аборигенов // – Москва: Этнографическое обозрение, – 2004. №1, – с. 114-133.

[15] Шнирельман, В.А. Проблема доклассового и раннеклассового этноса в зарубежной этнографии // Этнос в доклассовом и раннеклассовом обществе, – Москва: Наука, – 1982. – с. 207-253.; Попов, В.А. Концепт «племя», или «этничность» и «потестарность» в одном флаконе // – С.-Петербург: Studia Slavica et Balcanica Petropolitana. – 2015. № 2 (18), – с. 13-20.

[16] Hacıyev, R.S. Etnos anlayışına dair // − Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası . AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, − 2011. № 1, − s. 206-212.; Гаджиев, Р.С. К типологической классификации основных этнических общностей // – Саратов: Известия Саратовского ун-та. Новая сер. Сер. Философия. Психология. Педагогика. – т. 13. – 2013. Выпуск 3, – с. 11-

araşdırılması işinə həsr olunmuş son dövrün tədqiqatlarından Y.Y.Beryozkinin əsərlərini misal göstərmək olar.[17]

Tarixi prosesin aktiv subyektləri kimi çıxış edən sosiomədəni sistemlər sırasında onların təşəkkülü və inkişafı məsələlərinin öyrənilməsi baxımından ən qədimi və daha çox tədqiq olunanı dövlətdir. Dissertasiya işinin həcmini nəzərə alaraq, tədqiqatın giriş hissəsində tanınmış nəzəriyyələrə daha çox diqqət yetiriləcəkdir, çünki dövlətin təşəkkülünü əks etdirən konsepsiyaların sayı xeyli dərəcədə çoxdur.[18]

"Dövlət" anlayışının məzmunu, eləcə də bu siyasi sistemin təşəkkülü məsələləri ilk dəfə peşəkar səviyyədə böyük yunan filosofları Platon və onun şagirdi Aristotelin əsərlərində əsaslı şəkildə işlənilmişdir.[19] Platona görə dövlətlər ona görə yaranır ki, insanlar birgəyaşayışa meyl göstərirlər.[20] Aristotel isə müəlliminin

---

15.; Гаджиев, Р.С. К содержанию понятия этнос (социально-философский анализ) // – Новосибирск: Научный журнал «Серия Философия», Новосибирский Государственный Университет, – 2015. №1, – с. 54-60.

[17] Березкин, Ю.Е. Археология, этнография и политогенез / Ранние формы политических систем. – С.-Петербург: Музей антропологии и этнографии РАН, – 2012. – с. 135-158.; Березкин, Ю.Е. Между общиной и государством. Среднемасштабные общества Нуклеарной Америки и Передней Азии в исторической динамике / – С.-Петербург: Музей антропологии и этнографии РАН, – 2013. – 256 с.

[18] Алябьева, Т.К. Теория и общественная практика происхождения государства (курс лекций) / Т.К. Алябьева. – Москва: Изд. МГОУ, – 2012. – 556 с.

[19] Платон Государство / – Соч. в 3 томах. – Москва: Мысль, – т.3. – 1971. Часть 1. – с. 89-454.; Платон Законы / – Соч. в 3 томах. – Москва: Мысль, – т.3. – 1972. Часть 2. – с. 83-478.; Платон Письма / – Соч. в 3 томах. – Москва: Мысль, – т.3. – 1972. Часть 2. – с. 505-567.; Аристотель Большая этика [в 4 томах] / Аристотель. – Москва: Мысль, – т.4. – с. 295-374. – 1983. – 830 с.; Аристотель Никомахова Этика [в 4 томах] / Аристотель. – Москва: Мысль, – т.4. – с. 53-293. – 1983. – 830 с.; Аристотель Политика [в 4 томах] / Аристотель. – Москва: Мысль, – т.4. – с. 375-644. – 1983. – 830 с.; Давыдов, Ю.Н. Архетип социальной теории или социологии политики: Аристотелевская типология общественных классов и их политических комбинаций // – Москва: Полис. Политические исследования. – 1993. № 4, – с. 102-114.

[20] Платон Государство / – Соч. в 3 томах. – Москва: Мысль, – т.3. – 1971. Часть 1. – с. 145.

fikirlərini inkişaf etdirərək belə qənaətə gəlir ki, dövlətlər ailələrin birləşməsi əsasında təşəkkül tapırlar. Həm Platonun, həm də Aristotelin bu istiqamətdəki elmi fəaliyyətlərinin əsasında ideal dövlət quruluşunun yaradılması istəyi dayanmışdır.

Yunan filosoflarının dövlətin təşəkkülü haqqındakı fikirlərinə əsaslanan erkən xristianlıq dövrünün böyük nümayəndəsi A.Avqustin hesab etmişdir ki, dövləti təşkil edən insanlar olsa da, onun mövcudluğu tanrının istəyi ilə müəyyənləşir.[21] Bu teoloji konsepsiyanın mahiyyətini əsas etibarilə davam etdirən F.Akvinalıya görə isə, dövlətin yaranması Tanrının izni ilə müəyyənləşsə də, bu məsələdə əsas amillərdən biri kimi insanların birgəyaşayışa meylli olması istəyi çıxış edir.[22]

Orta əsrlərdə dövlətin təşəkkülü məsələsi İslam elminin ən görkəmli nümayəndələrindən biri olan və sosiologiya elminin ilk yaradıcılarından hesab edilən İbn Xəldunun fikirlərində yeni inkişaf mərhələsini yaşayır. İbn Xəldun dövlətin yaranmasını dini amil üzərində deyil, insanların köçəri həyat tərzindən oturaq yaşayışa keçidi kimi anlayaraq, bu prosesi "asabiyya", yəni sosial qrupun qan qohumluğuna əsaslanan həmrəyliyi hesabına bir tayfanın digərini işğal etməklə onun mülkünə sahib çıxması və bu zəmində şəhər mədəniyyətinin qurulması prosesi kimi başa düşmüşdür.[23] Bu mövqedən çıxış edən İbn Xəldun dövlətin yaranmasının üç mərhələsini müəyyənləşdirmişdir: birinci, köçəri həyat tərzi sürən tayfanın inkişafı; ikinci, asabiyya əsasında tayfadan dövlətin

[21] Августин, Блаженный. О граде Божьем / Б. Августин. – Минск: Харвест, – Москва: АСТ, – 2000. – 1296 с.; Епифанова, Т.В. Человек, общество и государство в политическом учении Августина Блаженного / Т.В. Епифанова. – Москва: Международный юридический институт, – 2012. – с. 138.

[22] Аквинский, Ф. «О правлении государей» / Политические структуры эпохи феодализма в Западной Европе (VI-XVII вв.), – Ленинград: Наука, –1990. – с. 217-244.; Щелоков, Д.В. Обзор основных теорий о возникновении государства // –Москва: Вестник Университета, – 2015. №1, – с. 260.

[23] Зикиров, Х.Х. Социально-политическая философия Ибн Халдуна / автореферат дис. на соискание кан. философских наук / – Душанбе, 2009. – с. 21.

yaranması və üçüncü, dövlətin dağılması.[24] Mütəfəkkirə görə, ictimai inkişaf bu prosesin təkrarlanması ilə səciyyələnir. İbn Xəldun elmdə ilk dəfə olaraq şəhər mədəniyyətini sivilizasiya kimi təqdim etmiş və nəticədə, C.Vikodan və lokal mədəniyyətlər nəzəriyyəsinin nümayəndələrindən xeyli əvvəl tarixi prosesi sivilizasiyaların bir-birini əvəzləməsi kimi səciyyələndirmişdir. Tədqiqatçı İ.L.Alekseyev qeyd edir ki, "*İbn Xəldun, əksər mütəxəssislərin qənaətinə görə, bir çox Yeni Dövr filosoflarının ideyalarını öncədən səsləndirmiş böyük İslam mütəfəkkiridir*".[25]

Avropa İntibah dövrünün görkəmli mütəfəkkiri N.Makiavellinin qənaətinə görə, dövlətin yaranması ilahi qüvvənin istəyi ilə deyil, insanlar arasında hökm etmə və tabe olma münasibətlərinin mövcudluğu ilə müəyyənləşir.[26] Bununla da N.Makiavelli Avropa elmində ilk dəfə dövlətin yaranması məsələsinin teoloji əsasda deyil, sosial zəmində həll olunması ideyasından çıxış etmişdir. Bu mövzuya həsr edilmiş "Hökmdar" əsərində N.Makiavelli əslində dövlətin necə idarə olunması kimi məsəsələrə daha çox diqqət yetirmişdir.[27]

Dövlətin təşəkkülü və inkişafı problemləri Yeni Dövr fəlsəfəsinin filosofları tərəfindən daha ətraflı şəkildə işlənilmişdir. Bu dövrün mütəfəkkirləri arasında "dövlətlərin yaranmasının müqavilə nəzəriyyəsi" adlı təlim daha çox şöhrət tapmışdır. Nəzəriyyənin tanınmış nümayəndələrindən T.Hobbs, C.Lok, Ş.Monteskye, J.J.Russo kimi böyük mütəfəkkirlərin adlarının qeyd etmək olar. T.Hobbsa görə, insanlar haqlarının məhdudlaşdırılması əsasında razılığa gələrək və birgəyaşayış qanunlarını

---

[24] Араби, Б. Ибн-Хальдун – основоположник арабской социологии // – Москва: Социологические исследования, – 1990. Т. 11, – с. 108.

[25] Алексеев, И.Л. Династическая автократия и конкурентный трайбализм в средневековом мусульманском обществе: взгляд Ибн Халдуна // – Москва: Вестник РГГУ. Серия: Политология. История. Международные отношения. Зарубежное регионоведение. Востоковедение. – 2016. № 1 (3), – с. 92.

[26] Щелоков, Д.В. Обзор основных теорий о возникновении государства // – Москва: Вестник Университета, – 2015. №1, – с. 260.

[27] Макьявелли, Н. Государь / Н. Макьявелли. – Москва: Хранитель. АСТ, – 2007. – 461 с.

formalaşdıraraq, öz aralarında müqavilə imzalayır və bununla da onları qoruyacaq dövlətin təşəkkülünü şərtləndirmiş olurlar.[28] C.Lokka görə isə, dövlətin yaranmasında başlıca səbəb kimi hamının hamıya qarşı müharibə vəziyyətində olması amili deyil, insanların mülkiyyətinin qorunması istəyi çıxış edir.[29] Ş.Monteskye hesab etmişdir ki, insanların birgəyaşayışa meyl göstərməsi və maraqlarının ödənilməsi naminə müharibələr aparması dövlətin yaranması üçün əhəmiyyətli səbəblər olsa da, bu məsələdə iqlim amili aparıcı rol oynamışdır.[30] J.J.Russo dövlətin yaranmasında insan zəkasının inkişafının mühüm amil olması qənaətində idi. O hesab edirdi ki, hissi təcrübənin və zəkanın qarşılıqlı əlaqəsi və inkişafı zəminində təbii yaşayış vəziyyətində olan insanlar (yəni yaranışından bərabər hüquqlara və imkanlara malik olan fərdlər) əkinçilik və sənətkarlığın təşəkkül tapması nəticəsində cəmiyyətdə sosial təbəqələşməyə uğramış, yəni varlılar və kasıblar meydana gəlmiş, nəticədə, onlar arasında münaqişələr baş qaldırmışdır. Təbəqələşmə zəminində ortaya çıxan mülkiyyətin qorunması və bunun nəticəsində ortaya çıxan müharibələrin qarşısının alınması istiqamətində insanlar dövlətin yaradılmasına müvəffəq olmuşlar.[31]

XIX əsrin ikinci yarısında Avropada dövlətlərin təcavüzkarlıq nəticəsində yaranması ilə bağlı nəzəriyyə meydana gəldi. Bu nəzəriyyənin yaradıcısı avstriyalı alim L.Qumploviç oldu. L.Qumploviçə görə, dövlətlərin yaranmasının əsasında aktiv yaşayan köçəri tayfaların oturaq həyat tərzi sürən xalqlar üzərindəki işğalçılıq fəaliyyəti dayanır.[32]

---

[28] Гоббс, Т. Левиафан или материя, форма и власть государства церковного и гражданского [в 2 томах] / Т. Гобсс. – Москва: Мысль, – т. 2. – 1964. – с. 149-156.

[29] Локк, Дж. [сочинения в 3 томах] / составитель А.Л. Субботин. – Москва: Мысль, т.3. – 1988. – с. 334.

[30] Монтескье, Ш. Избранные произведения / Ш. Монтескье. – Москва: Политиздат, – 1995. – с. 166-168.

[31] Руссо, Ж.-Ж. Трактаты / Ж.-Ж. Руссо. – Москва: Академия, – 1969. – с. 80-84.

[32] Перцев, Д.М. К вопросу о теориях политогенеза // – Томск: Вестник Томского государственного университета, – 2016. № 407, – с. 116.

Dövlətin yaranmasını izah edən daha bir tanınmış nəzəriyyə alman alimi K.Vittfogelin adı ilə bağlıdır. K.Vittfogel hesab etmişdir ki, tarixdə ilk dövlətlərin yaranması irriqasiyaya əsaslanan kənd təsərrüfatı sayəsində meydana gəlmişdir. Dünyagörüşü baxımından marksisit olan tanınmış alim hesab etmişdir ki, yalnız irriqasiyaya əsaslanan təsərrüfat nəticəsində cəmiyyətdə varlı və kasıb təbəqələr, idarə edən və idarə olunan siniflər meydana gəlmiş, bununla da ilk dövlətlərin təşəkkülünə imkan yaranmışdır.[33] Lakin tədqiqatlarımızın gedişi göstərir ki, bu nəzəriyyə də qüsurludur, çünki ilk dövlətlərin təşəkkül tapması fərqli coğrafi şəraitlərdə də baş vermişdir (məs., Krit-Miken sivilizasiyası dövründə yaranmış dövlətlər). K.Vittfogelin tanınmış nəzəriyyəsi XX əsrin sosial neoevolyusionizm təliminin aparıcı nümayəndələrindən olan J.Styuardın baxışlarına təsir göstərmişdir. J.Styuard sosiomədəni sistemlərin tarixi inkişafında paralellik amilindən bəhs etmiş və əksər mütəxəssislər kimi ilk dövlətlərin sinxron şəkildə yaranmasını təbii mühitin sosial proseslərə təsirində görmüşdür.[34] Lakin konkret elmi faktlara əsaslanan tədqiqatlarımızın gedişi göstərir ki, dövlətlərin sinxron şəkildə təşəkkül tapması hadisəsini heç bir eksternalist, o cümlədən təbii amillər zəminində ziddiyyətsiz şəkildə izah etmək mümkün deyil.

Neoevolyusionizmin sonrakı inkişaf mərhələsinin görkəmli nümayəndələrindən olan M.Salinz və E.Servis L.Uaytın və xüsusən də J.Styuardın sosial təkamülə dair baxışlarını daha da inkişaf etdirdilər. J.Styuard kimi onlar da hesab etmişlər ki, sosiomədəni inkişafda özünü büruzə verən paralellik xüsusiyyətləri təbiətin təsiri ilə bağlı olmuşdur.[35] Xüsusən E.Servisin baxışları araşdırdığımız kontekstdə maraq doğurur. E.Servis hesab etmişdir ki, dövlətlərin

---

[33] Постников, В.Г. Эволюция концепций государства (окончание) // – Москва: Право и образование, – 2003. № 3, – с. 229.

[34] Steward, J. Theory of CultureChange / J. Steward. Urbana: University of Illinois Press, – 1955. – pp. 14-21.

[35] Нагих, С.И. Происхождение государства в свете теории социальной эволюции // – Ростов-на-Дону: Наука и образование: хозяйство и экономика; предпринимательство; право и управление, – 2014. № 1 (44), – с. 56.

meydana gəlməsində liderlik amili aparıcı rol oynayır.[36] Onun opponenti görkəmli amerikalı sosial-antropoloq M.Frid isə hesab etmişdir ki, dövlətin yaranmasının əsas səbəbi cəmiyyətdə sosial təbəqələşmənin başa çatması və siniflərin meydana gəlməsi amilidir.[37]

Yuxarıdakı şərhlər dövlətin təşəkkülünə dair aparıcı nəzəriyyələri əsasən ehtiva edir. Digər mövcud nəzəriyyələrin də məzmununu nəzərə alaraq demək mümkündür ki, ümumən ilk dövlətlərin təşəkkülü məsələsi indiyə kimi mütəxəssislər arasında fikir ayrılığı ilə səciyyələnməkdədir və bütün tərəfləri qane edə biləcək dolğun nəzəriyyə hələ də ortaya qoyulmamışdır. Bu məsələyə dair son dövrün araşdırmalarından professor V.A.Qutorovun, N.B.Koçakovanın, L.Y.Qrininin, D.M.Bondarenkonun tədqiqatlarını misal çəkmək olar.[38]

Dövlətin təşəkkülü problemindən sonra tarixi prosesdə sosiomədəni sistemlərin yaranmasına dair filosofları və mütəfəkkirləri daha çox düşündürən suallar ilk sivilizasiyaların necə meydana gəlməsi və onların inkişaf xüsusiyyətlərinin öyrənilməsi məsələləri ilə bağlı olmuşdur. Sivilizasiyaların tarixinə, onların müqayisəli təhlilinə həsr edilmiş ilk tədqiqatlar XIX əsrin birinci

---

[36] Service, E. Origins of the State and Civilization: The Process of Cultural Evolution / E. Servis. NewYork: Norton, – 1975. – p. 294.

[37] Нагих, С.И. Происхождение государства в свете теории социальной эволюции // – Ростов-на-Дону: Наука и образование: хозяйство и экономика; предпринимательство; право и управление, – 2014. № 1 (44), – с. 57.

[38] Гуторов, В.А. К вопросу о происхождении государства: парадоксы и аномалии современных интерпретаций // – Москва: Полис. Политические исследования, – 2014. № 3, – с. 91-110.; Кочакова, Н.Б. Размышления по поводу раннего государства // Ранние формы политической организации: от первобытности до государственности, – Москва: Восточная литература РАН, – 1995. – с. 153-165.; Гринин, Л.Е. Ранние государства и их аналоги в политогенезе: типологии и сопоставительный анализ / Ранние формы политических систем. – С.-Петербург: Музей антропологии и этнографии РАН, – 2012. – с. 9-99.; Бондаренко, Д.М. Родственный и территориальный принципы организации общества и феномен государства // Ранние формы политических систем. – С.-Петербург: Музей антропологии и этнографии РАН, –2012. – с. 99-135.

yarısında fransız tarixçisi F.Qizonun əsərlərində öz əksini tapmışdır. Həmin dövrdə bu istiqamətdə aparılmış digər tədqiqatlar yenə də Fransada V.Kuzenin və onun davamçıları Ş.Renuvyenin, J.Mişlenin və xüsusən də E.Kinenin əsərlərində həyata keçirilmişdir. E.Kine hesab etmişdir ki, sivilizasiyaların meydana gəlməsi dinin təsiri nəticəsində mümkün olmuşdur.[39] Eyni mövqedən fransız tədqiqatçısı T.S.Jufrua da çıxış etmişdir.[40] Adları çəkilən alimlərin baxışlarına bir mənfi xüsusiyyət xas olmuşdur ki, o da Avropa sivilizasiyasının digər sivilzasiyalardan xeyli dərəcədə üstün tutulması mövqeyi ilə bağlı idi. Onlar sivilizasiyaların müqayisəli təhlilini ierarxik qaydada aparmış və öz fikirlərində faktiki olaraq avroposentrist mövqedən çıxış etmişlər. Belə ki, digər sivilizasiyaların tarixi, yeganə əsl sivilizasiya kimi dəyərləndirilən Avropa üçün bir növ ictimai inkişafın başlanğıc mərhələləri kimi başa düşülmüşdür.[41] Başqa sözlə, adları qeyd edilən alimlərin baxışları üçün sivilizasiyaların eyni səviyyədə tutulması, qarşılıqlı əlaqələrdən faydalanma və onların dialoqu kimi mövzular yad idi.[42] Fransız alimlərindən fərqli olaraq sivilizasiyaları ilk dəfə eyni müstəvidə araşdıran, onların dialoqundan danışan alman mütəfəkkiri Q.Rükkert olmuşdur. Öz sələfi, görkəmli alman mütəfəkkiri Y.Q.Hörderin "Bəşər tarixinin fəlsəfəsinə dair ideyalar" əsərindən bəhrələnən Q.Rükkert sivilizasiyaları müstəqil şəkildə mövcud olan, özünəməxsusluğu ilə səciyyələnən "mədəni tiplər" kimi dəyərləndirərək, onlar arasındakı qarşılıqlı əlaqələrə böyük önəm vermişdir.[43] Tarixdə beş yüksək mədəni tipləri (alman-xristian, şərqi xristian, ərəb, Hind və Çin) ayırd edən Q.Rükkert də bir çoxları kimi düşünmüşdür ki,

---

[39] Кузык, Б.Н. Цивилизации: теория, история, диалог, будущее [в 2 томах] / Б.Н. Кузык, Ю.В. Яковец. – Москва: Институт экономических стратегий, – т.1. – 2006. – с. 33.

[40] Ионов, И.Н. Понятие и теория локальных цивилизаций: проблема историографического приоритета / Цивилизации. – Москва: МАЛП, – 1997. Вып.4, – с. 140.

[41] Yenə orada, – s.140-142.

[42] Yenə orada, – s.144.

[43] Yenə orada, – s. 145-146.

sivilizasiyaların yaranmasında din amili əsas rol oynayır.[44] Demək mümkündür ki, məhz Rükkert sivilizasiyalar nəzəriyyəsində ilk dəfə olaraq mədəni tiplərin eyni dərəcədə əhəmiyyətliliyi məsələsini gündəmə gətirə bilmişdir. Həmin dövrdə (XIX əsrin ortaları) ingilis mütəfəkkiri H.T.Bokl özünəməxsus sivilizasiyalar nəzəriyyəsini yaratmışdır. Onun qənaətinə görə, sivilizasiyaların təşəkkülünə iki amil təsir edir: birincisi, təbii mühit və onun insanlara təsiri, ikincisi, insanların təbiəti nə dərəcədə dərk etməsi və bunun da əsasında ona əks-təsir göstərməsi amilləri.[45] Diqqətlə fikir versək, H.T.Boklun yanaşmasında A.Toynbinin çağırış-cavab konsepsiyasının ideyalarını aydın sezmək olar. Q.Rükkertin "mədəni tip" anlayışını inkişaf etdirən rus mütəfəkkiri N.Danilevskiy yazdığı "Rusiya və Avropa" əsərində sivilizasiyaların sayını 12-yə çatdıraraq, onların hər birinə özünəməxsusluq xüsusiyyətinin xas olması mövqeyini əsaslandıra bilmişdir.[46]

XX əsrdə sivilizasiyalar nəzəriyyəsi O.Şpenqlerin, A.Toynbinin, P.Sorokinin yaradıcılığında yeni inkişaf mərhələsini yaşaya bildi.[47] Sivilizasiyalar nəzəriyyəsinin sonrakı inkişafı tanınmış mütəxəssislər N.Eliasın, Ş.Eyzenştadtın, K.Kuiqlinin, D.Uilkinsonun, E.Servisin əsərlərində öz əksini tapdı.[48]

---

44 Ионов, И.Н. Понятие и теория локальных цивилизаций: проблема историографического приоритета / Цивилизации. – Москва: МАЛП, – 1997. Вып.4, – с.146-147.

45 Кузык, Б.Н. Цивилизации: теория, история, диалог, будущее [в 2 томах] / Б.Н. Кузык, Ю.В. Яковец. – Москва: Институт экономических стратегий, – т.1. – 2006. – с. 36.

46 Кузык, Б.Н. Цивилизации: теория, история, диалог, будущее [в 2 томах] / Б.Н. Кузык, Ю.В. Яковец. – Москва: Институт экономических стратегий, – т.1. – 2006. – s. 42.

47 Шпенглер, О. Закат Европы / О. Шпеглер. – Новосибирск: Наука, – 1993. – 592 с.; Тойнби, А. Постижение истории: сборник / А. Тойнби. – Москва: Айрис-пресс, – 2003. – 640 с.; Сорокин, П. Общие принципы цивилизационной теории и ее критика / Сравнительное изучение цивилизаций, – Москва: Аспект Пресс, – 1999. – с. 47-54.

48 Eisenstadt, S. Sociological Approach to the Comparative Study of Civilizations / S. Eisenstadt. – Jerusalem: The Hebrew University. – 1982. – 298 p.; Elias, N. The Civilizing Process // Sociogenetic and Psychigenetic Investigations, – L.; N.Y., –

Ümumiləşdirərək demək olar ki, yuxarıda adları çəkilən mütəfəkkirlərin və digərilərinin baxışlarında sivilizasiyaların təşəkkülü məsələsi daha çox eksternalist əsaslarda, yəni xarici amillərin (ekoloji, iqtisadi, dini, texnoloji və s.) təsiri zəminində müəyyən edildi, lakin bu günə qədər irəli sürülmüş nəzəriyyələrdən heç biri ilk sivilizasiyaların hansı səbəbdən məhz e.ə. IV minilliyin ortalarından etibarən sinxron şəkildə dünyanın müxtəlif bölgələrində təşəkkül tapması məsələsinə aydınlıq gətirə bilmədi.[49] Sivilizasiya nəzəriyyəsinin müasir tədqiqatçılarından ilk növbədə S.Hantinqtonun, V.Mak-Nilin, rusiyalı alimlərdən B.S.Yerasovun, Y.V.Yakovetsin, İ.N.İonovun, B.N.Kuzıkın adlarını misal çəkmək olar.

Sosiomədəni sistemlərin tarixi təşəkkülü və inkişafı məsələlərinə həsr olunmuş tədqiqatların araşdırılması ilə bağlı yuxarıdakı şərhlərimiz bir həqiqəti ortaya çıxarır ki, diqqətə aldığımız problemlərin həlli ilə əlaqədar bu günə kimi mütəxəssislər, alim və mütəfəkkirlər arasında ortaq mövqe əldə edilməmişdir. Ona görə də yuxarıda qaldırılan bir çox məsələlərə aydınlıq gətirilməsi və qaneedici nəticələrin əldə olunması istiqamətində hazırkı disseratasiyada yeni metodoloji əsasda hərtərəfli və geniş tədqiqat işi həyata keçirilmişdir. Nəticədə, bəşər tarixinin erkən dövrlərindən başlayaraq müasir mərhələyə qədər özünü büruzə vermiş və bu günə qədər real həllini tapmamış qlobal əhəmiyyətli ictimai hadisələrin (məsələn, ibtidai icmanın, qəbilənin, etnosun, tayfanın, dövlətin və

---

1978. V. 2, – pp. 229-235.; Quigley, C. The Evolution of Civilizations: An Introduction to Historical Analysis / C. Quigley. New York: Macmillan Publishing Company. – 1961. – 281 p.; Wilkinson, D. Spatio-Temporal Boundaries of African Civilizations Reconsidered // Comparative Civilizations Review. – 1995. № 29, – pp. 52-90. Service, E. Origins of the State and Civilization: The Process of Cultural Evolution / E. Servis. NewYork: Norton, –1975. – 361 p.

[49] Павленко, Ю.В. Раннеклассовые общества (генезис и пути развития) / Ю.В. Павленко. – Киев: Наук. Думка, – 1989. – с. 34-52.; Жестоканов, С.М. К вопросу о типологии древних цивилизаций // – Псков: Метаморфозы истории, – 1997. № 11, – с. 42-57.

digər bu tipli insan birliklərinin hansı səbəbdən təşəkkül tapması məsələlərinin) bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezasının tətbiqi əsasında tədqiqini həyata keçirməklə, sosiomədəni sistemlərin inkişaf dinamikasının öyrənilməsi, yəni onların hansı səbəbdən tarixi prosesin müəyyən dövrlərindən etibarən ardıcıl və mərhələli şəkildə meydana gəlməsinin ziddiyyətsiz şəkildə izah edilməsi mümkün olmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini tarixi prosesin aktiv subyektləri kimi qəbul olunan sosiomədəni sistemlərin tarixi təşəkkülü və inkişafı məsələlərinin araşdırılması işi, predmetini isə sosiomədəni sistemlərin tarixi təşəkkülü və inkişafı məsələlərinin bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezası kontekstində tədqiqi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işinin başlıca məqsədi bəşəriyyətin intellektual təkamülü kontekstində tarixi prosesin aktiv subyektləri kimi çıxış edən müxtəlif tipli sosiomədəni sistemlərin hansı səbəbdən təşəkkül tapması və inkişaf dinamikası kimi məsələlərin yeni metodoloji prizmadan araşdırılmasıdır. Bu məqsəddən irəli gələrək dissertasiya işinin qarşısında aşağıdakı vəzifələrin həyata keçirilməsi dayanır:

– sosiohumanitar elmlərdə geniş istifadə edilən “sosiomədəni sistem” anlayışının məzmununa aydınlıq gətirmək;

– “sosiomədəni sistem” anlayışının məzmununa daxil olan komponentlərin təsnifatını və differensiasiyasını aparmaq;

– sosial təkamüldə erkən ibtidai icmanın yaranması və dual təsəvvürlərin meydana gəlməsi məsələlərini araşdırmaq;

– intellektual təkamülün yaş dövrləşdirilməsi hipotezası əsasında qəbilənin nə vaxt və necə təşəkkül tapması məsələlərinə aydınlıq gətirmək;

– intellektual təkamülün yaş dövrləşdirilməsi hipotezası əsasında nikahın və ailə institutunun hansı səbəbdən və necə yaranması məsələlərini araşdırmaq;

– tarixi prosesdə etnosun və tayfanın nə vaxt və hansı səbəbdən meydana gəlməsi məsələlərini araşdırmaq;

– ilk dövlətlərin hansı səbəbdən e.ə. IV minilliyin ikinci yarısında təşəkkül tapması probleminə aydınlıq gətirmək;

– ilk dövlətlərin və sivilizasiyaların hansı səbəbdən dünyanın fərqli regionlarında sinxron şəkildə meydana gəlməsi sualını cavablandırmaq;

– tarixi prosesin müasir mərhələsində sosiomədəni sistemlərin inkişaf xüsusiyyətlərini, onlar arasındakı qarşılıqlı əlaqələri və dialoq problemlərini araşdırmaq;

– sosiomədəni sistemlərin inkişaf dinamikasının bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezası kontekstində təhlilini vermək.

**Tədqiqatın metodoloji əsası və metodları**. Dissertasiya mövzusu bir sıra humanitar elmlərin predmetinə daxil olan məsələləri əhatə edir və bu səbəbdən tədqiqatın nəzəri əsası kimi çıxış edən sosial fəlsəfə ilə yanaşı tarix, etnoqrafiya, antropologiya, arxeologiya, eləcə də yaş psixologiyası kimi elmlərlə əlaqədar olub, adları çəkilən sahələrdə ortaya çıxarılmış yeni biliklərin fəlsəfi təhlili zəminində yerinə yetirilmişdir. Dissertasiyasının metodoloji əsası kimi ilk növbədə iddiaçının fəlsəfə doktoru işində irəli sürdüyü və onun digər tədqiqatlarında konkret elmi faktlar zəminində əsaslandırdığı bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezası çıxış edir.[50] Bununla bərabər tədqiqat işində sistem yanaşmadan istifadə edilmişdir. Sistem yanaşmada tədqiqat obyekti sistemi təşkil edən elementlərin (və ya komponentlərin) bir-birilə qarşılıqlı əlaqələrinin vəhdəti kimi nəzərdən keçirilir. Sistem yanaşmanın özəlliyi ondan ibarətdir ki, burada elementlərarası daxili əlaqələrlə yanaşı, sistemin xarici aləmlə əlaqələrinə də diqqət yetirilir.

---

[50] Гаджиев, Р.С. Проблема смысла жизни / Р.С. Гаджиев. – Баку: Текнур, – 2007. – с. 119-131.; Hacıyev, R.S. Tarixi prosesin inkişaf dinamikası və ya qloballaşmaya aparan intellektual təkamül yolu / R.S. Hacıyev. − Bakı: Xəzər Universiteti, − 2015. – 352 s.; Гаджиев, Р.С. Философский анализ исторического процесса: в поисках закономерности // – Элиста: Вестник Калмыцкого Университета, – 2016. №3(31), – с. 86-92.; Hajiyev, R.S. On a regularity of the intellectual evolution of mankind // – Sofia: Balkan Journal of Philosofy, – 2020. №2(12), – pp. 99-110.

Dissertasiyada tətbiq edilən aparıcı tədqiqat üsullardan biri də tarixi (və ya tarixi-genetik) metoddur. Bu metod tədqiq edilən obyekti onun inkişafı prosesində araşdırır. Bu metodun tətbiqi zamanı tədqiq edilən obyektin bu günü və gələcəyini başa düşmək üçün onun keçmişinə nəzər salınır, eyni zamanda tarixi dövrlər arasındakı varislik prinsipi diqqətə alınır.

Digər tətbiq olunan məntiqi üsul müqayisəli metod adlanır. Bu metod inkişaf edən sistemlərin öyrənilməsində olduqca mühüm əhəmiyyət daşıyır. Müqayisə metodunun məntiqi əsası analogiyadır. Müqayisə metodunun tətbiqi sosiomədəni proseslərin oxşarlığı və mahiyyəti baxımından təkrarlanması xüsusiyyətlərindən irəli gəlir. Müqayisə metodu ictimai və humanitar elmlərdə ən çox istifadə olunan məntiqi üsullardan biridir.

Adları yuxarıda qeyd edilən aparıcı metodlarla yanaşı dissertasiya işi analiz, sintez, ümumiləşdirmə, induksiya və deduksiya kimi ümumməntiqi üsulların tətbiqi sayəsində yerinə yetirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Sosial sistem və mədəni sistemlərin fərqləndirilməsi məsələsi "sosial sistem" anlayışının məzmunundakı idarəetmə əlaməti vasitəsilə real həllini tapır;

2. Sosiomədəni sistemlərin tarixi inkişafının mərhələli şəkildə və müəyyən ardıcıllıqla baş verməsi bəşəriyyətin intellektual təkamülündən qaynaqlanır;

3. Sosiomədəni sistemlərin sinxron şəkildə təşəkkül etməsi məsələsi bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezası vasitəsilə ziddiyyətsiz şəkildə həllini tapır.

**Tədqiqatın elmi yeniliyi**. Araşdırılan problem dissertasiya mövzusu kimi ilk dəfə tədqiqata cəlb olunduğu səbəbindən tarixi prosesin aktiv subyektləri kimi çıxış edən sosiomədəni sistemlərin inkişaf dinamikasının bəşəriyyətin intellektual təkamülü kontekstində araşdırılması işi fəlsəfə elmində həyata keçirilən birinci cəhd kimi dəyərləndirilə bilər. Qeyd etmək lazımdır ki, dissertasiyada ilk növbədə "sosiomədəni sistem" anlayışının mahiyyət və məzmununa aydınlıq gətirilir, ilk dəfə olaraq məhz hazırkı tədqiqat işində bu

səpgili metodoloji məsələlər hərtərəfli şəkildə araşdırılır. Bununla yanaşı, təqiqatın elmi yeniliyi aşağıdakı müddəalarda öz əksini tapır:

– "sosiomədəni sistem" anlayışının məzmununa daxil olan komponentlərin dolğun təsnifatı və differensiasiyası aparılır;

– erkən ibtidai icmanın meydana gəlməsi məsələsinə aydınlıq gətirilir və bu prosesin neoantropun yaranması dövrünə təsadüf etməsi mövqeyi əsaslandırılır;

– ibtidai icmalarda dual təsəvvürlərin hansı səbəbdən yaranması məsələsinin yeni metodoloji müstəvidə analizi verilir;

– ana və ata xətli qəbilə tiplərinin mahiyyəti araşdırılır və tarixi prosesdə onların hansı ardıcıllıqla meydana gəlməsi məsələsinə aydınlıq gətirilir, eləcə də klassik qəbilənin neolitdən etibarən meydana gəlməsi mövqeyi əsaslandırılır;

– ailə institutunun hansı səbəbdən və necə yaranması məsələlərinə aydınlıq gətirilir, eləcə də sosial təkamüldə nikahın müxtəlif tiplərinin müəyyən ardıcıllıqla meydana gəlməsi məsələsinin yeni metodoloji prizmadan şərhi verilir;

– etnosun və tayfanın hansı səbəbdən neolit dövründə meydana gəlməsi mövqeyi əsaslandırılır;

– dissertasiya işində iddiaçı tərəfindən "başçılıq sistemi" adı ilə ilk dəfə elmi dövriyyəmizə daxil edilən yeni bir anlayışın məzmunu şərh olunur;

– tarixdə potestar sistemlərin yaranması prosesində şəxsiyyət amilinin aparıcı rol oynaması müəyyən edilir və əsaslandırılır ki, yalnız bu amilin meydana gəlməsi zəminində ilk dövlətlərin təşəkkül tapması mümkün olur;

– ilk dövlətlərin və sivilizasiyaların hansı səbəbdən e.ə. IV minilliyin ikinci yarısından etibarən paralel şəkildə yaranması məsələsinə bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezası əsasında aydınlıq gətirilir;

– sosiomədəni sistemlərin təşəkkül dinamikasının bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezası kontekstində təhlili verilir.

**Dissertasiyanın elmi və praktik əhəmiyyəti**. Dissertasiyanın elmi əhəmiyyəti ilk növbədə tarixi prosesin aktiv subyektləri kimi çıxış edən sosiomədəni sistemlərin təşəkkülü və inkişafı

problemlərinin yeni metodoloji zəmində, yəni bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezası əsasında tədqiq olunması ilə müəyyənləşir. Bu əsasda tarixi prosesdə mərhələli şəkildə təşəkkül tapan müxtəlif tipli sosiomədəni sistemlərin inkişaf dinamikası nəzərdən keçirilir. Yeni metodologiyanın tətbiqi sayəsində ibtidai icmanın, qəbilənin, etnosun, tayfanın, dövlətin, sivilizasiyanın hansı səbəbdən tarixi prosesin müəyyən dövrlərində təşəkkül tapması məsələlərinə aydınlıq gətirilir.

Dissertasiyanın praktik əhəmiyyəti sosial fəlsəfənin ictimai inkişaf proseslərinin tədqiqini ehtiva edən sahələrində yeni dissertasiya mövzularının işlənilməsi, tarixin fəlsəfəsinə dair problemlərin öyrənilməsi, tarix fənni üzrə yeni dərsliklərin yazılması və onların tədrisi məsələlərində, eləcə də arxeologiya və etnoqrafiya sahəsində aparılan elmi tədqiqatlarda nəzəri-metodoloji əsas kimi istifadə olunması ilə müəyyənləşir.

**Tədqiqat işinin aprobasiyası**. Tədqiqat işinin metodoloji əsasını təşkil edən bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezası barəsində Afinada, İstambulda, Kazanda, Ufada və digər xarici şəhərlərdə keçirilən bir sıra nüfuzlu beynəlxalq elmi tədbirlərdə iddiaçı tərəfindən məruzələr edilmiş və elmi fərziyyənin aparıcı müddəaları, eləcə də dissertasiyanın məzmununu əks etdirən mühüm məqamlar orada keçirilən müzakirələrdə işıqlandırılmışdır. İddiaçının irəli sürdüyü hipotezanın əhəmiyyətinə dair Rusiyanın tanınmış alimləri tərəfindən müsbət rəylər əldə edilmişdir. Dissertasiyanın məzmununun əsas məqamları barədə Fəlsəfə və Sosiologiya İnstitutunda keçirilən bir sıra elmi seminarlarda, eləcə də Türkiyənin Bursa şəhərinin Uludağ Universitetində təşkil olunan seminarda məruzələr edilmişdir. Xaricdə və respublikamızda AAK-ın tövsiyyəsi ilə cap edilən elmi jurnallarda, eləcə də beynəlxalq konqress, konfrans və simpozium materiallarında dissertasiyanın məzmunu ilə bağlı 30-a yaxın məqalə və tezis işıq üzü görmüşdür.

Dissertasiya AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun “Sosial fəlsəfə və ekoloji problemlər” şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla tədqiqatın işarə ilə ümumi həcmi**: Dissertasiya işi girişdən (35336 işarə), 5 fəsildən (I fəsil – 43408 işarə; II Fəsil – 140313 işarə, III Fəsil – 120393 işarə; IV Fəsil – 82447 işarə; V Fəsil – 62234 işarə), 13 paraqrafdan, nəticədən (14009 işarə) və ədəbiyyat siyahısından (61620 işarə) ibarətdir. Dissertasiyanın ümumi həcmi 562932 işarədən, ədəbiyyat siyahısı istisna olunmaqla isə 501312 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Tədqiqatın "**Giriş**" hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi araşdırılır, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, elmi-nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilir, aprobasiyası və strukturu nəzərdən keçirilir.

Dissertasiyanın "**Sosiomədəni sistemlər və onların tipoloji təsnifatı: metodoloji aspekt**" adlı birinci fəsli iki paraqrafdan ibarətdir. ""**Sosiomədəni" termini və "sosiomədəni sistem" anlayışının məzmunu**" adlı birinci paraqraf sosial fəlsəfənin mühüm metodoloji əhəmiyyət daşıyan məsələlərinin araşdırılmasına həsr olunmuşdur. Bu paraqrafda "sosiomədəni" termini və "sosiomədəni sistem" anlayışlarının, eləcə də "sosial sistem" və "mədəni sistem" məfhumlarının mahiyyət və məzmununa aydınlıq gətirilməsi işi həyata keçirilmişdir.[51] Qaldırılmış məsələlərin çözümü ilə əlaqədar birinci paraqrafda ilk növbədə tanınmış sosioloq P.Sorokinin adları yuxarıda qeyd olunmuş anlayışların məzmunu ilə bağlı tədqiqatları əsaslı şəkildə nəzərdən keçirilmişdir. Nəticədə, müəyyən edilmişdir ki, P.Sorokin "sosiomədəni" anlayışı olaraq iki və daha çox fərdin əhəmiyyət daşıyan (və ya məna kəsb edən) qarşılıqlı əlaqələrini başa

---

[51] Гаджиев, Р.С. К типологической классификации основных этнических общностей // – Саратов: Известия Саратовского ун-та. Новая сер. Сер. Философия. Психология. Педагогика. – т. 13. – 2013. Выпуск 3, – с. 11-15.; Гаджиев, Р.С. О содержании социокультурных систем // – Москва: Вопросы философии, – 2018. №11, – с. 16-24.

düşür.[52] Daha sonra aydınlaşdırılmışdır ki, P.Sorokin "sosiomədəni sistem" anlayışının məzmununda iki əsas tərəfi ayırd edir: sosial sistem və mədəni sistem. Eyni yanaşmanı tanınmış amerikalı sosioloq T.Parsonsun, rusiyalı mütəxəssis N.İ.Lapinin və başqalarının da fikirlərində ayırd etmək mümkündür.[53] Bütün hallarda sosial sistem deyildikdə qarşılıqlı əlaqədə olan subyektlər və ya interaksiya, mədəni sistem deyildikdə isə mənalar, dəyərlər, normalar və bir də onların maddi daşıyıcıları nəzərdə tutulur. Bu məsələlərin ətraflı araşdırılması əsasında tərəfimizdən sosiomədəni sistemin aşağıdakı tərifi təklif edilmişdir: "***sosiomədəni sistem*** *dedikdə sosial və mədəni sistemlərin inteqrativ əlaqələrini və qarşılıqlı asılılığını nəzərdə tutan bir anlayış başa düşülür*".[54]

"**Sosiomədəni sistemlərin tipoloji təsnifatı**" adlı ikinci paraqraf sosiomədəni sistemlərin növünə görə tipoloji təsnifatı məsələlərinə həsr olunmuşdur. Bu paraqrafın yazılmasında əsas məqsəd müxtəlif tipli sosiomədəni sistemlərin mahiyyəti baxımından sosial və ya mədəni sistem olub-olmaması kimi metodoloji baxımdan mühüm əhəmiyyət kəsb edən problemə aydınlıq gətirilməsidir. Məsələ burasındadır ki, ümumən fəlsəfədə, xüsusən sosial fəlsəfədə, eləcə də tarix və etnoqtafiya kimi elm sahələrində etnos və tayfa, xalq və millət kimi anlayışların eyni mənada işlədilməsi praktikası geniş yer almaqdadır.[55] Bu vəziyyət sovet dönəmindən başlayaraq,

---

[52] Сорокин, П. А. Человек. Цивилизация. Общество / П.А. Сорокин. – Москва: Политиздат, – 1992. – с. 191.

[53] Парсонс, Т. О социальных системах / Т. Парсонс. – Москва: Академический Проект, – 2002. – с. 691; Лапин, Н.И. Социокультурный подход и социетально-функциональные структуры // – Москва: Социологические исследования, – 2000. №7, – с. 3-4.

[54] Гаджиев, Р.С. О содержании социокультурных систем // – Москва: Вопросы философии, – 2018. №11, – с. 19.

[55] Hacıyev, R.S. Etnos anlayışına dair // − Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası . AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, − 2011. № 1, − s. 206-212.; Hacıyev, R.S. Sosiomədəni sistemlərin tipoloji təsnifatına dair // − Bakı: AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, "Azərbaycan Arxeologiyası və Etnoqrafiyası" jurnalı, – 2011. № 1, – s. 199.; Hacıyev, R.S. "Xalq" anlayışına dair (sosial-fəlsəfi təhlil) // − Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. AMEA

müasir mərhələdə də özünü müxtəlif səviyyəli elmi tədqiqat işlərində, tarix, sosiologiya və kulturologiyaya dair dərsliklərdə, eləcə də ictimai fikirdə biruzə verməkdədir. Digər tərəfdən, dissertasiya işi tarixi prosesin aktiv subyektləri kimi çıxış edən sosiomədəni sistemlərin, yəni qəbilə, tayfa, etnos, xalq, dövlət və bu kimi digər ictimai birliklərin təşəkkül və inkişaf dinamikasına həsr olunduğu səbəbindən bu anlayışların mahiyyət və məzmununa aydınlıq gətirilməsi məsələsi vacib metodoloji əhəmiyyət daşıyır.

Tədqiqatlarımızın gedişi göstərdi ki, P.Sorokin də daxil olmaqla bir çox tanınmış alim və tədqiqatçılar adları yuxarıda çəkilən anlayışların aydın differensiasiyasını apara bilməmiş və bununla da onların eyniləşdirilməsinə yol açmışlar. Bunu nəzərə alaraq, ikinci paraqrafda ilk növbədə sosial sistemlərin mədəni sistemlərdən fərqləndirilməsi işi həyata keçirilmişdir. Araşdırmalarımız nəticəsində müəyyən edilmişdir ki, sosial sistemi mədəni sistemdən fərqləndirən başlıca mühüm əlamət vardır ki, o da bu anlayışların məzmununda idarəetmə amilinin olub-olmaması ilə müəyyənləşir.[56] Başqa sözlə, müəyyənləşdirilmişdir ki, idarəetmə amilinin yer aldığı sistemlərin sosial, yer almadığı sistemlərin isə mədəni sistemlər kimi təyin edilməsi halında elmi mühitdə artıq uzun zaman özünü göstərən anlayışların eyniləşdirilməsi probleminin qənaətbəxş həlli mümkün olur. İdarəetmə amilinin nəzərə alınması əsasında müəyyən edilmişdir ki, qəbilə, tayfa, dövlət kimi ictimai birliklər - sosial sistemlər, etnos, xalq, sivilizasiya kimi toplumlar isə mədəni sistemlər kimi təsnif oluna bilər.

Dissertasiyanın “**Sosiomədəni sistemlərin təşəkkülü və tarixi inkişafının erkən dövrü”** adlı ikinci fəsli üç paraqrafdan ibarətdir. “**Erkən ibtidai icmanın və qəbilənin təşəkkülü problemləri**” adlı birinci paraqraf erkən ibtidai icmanın və qəbilənin

---

Arxeologiya və Etnoqrafiya İnstitutu, − 2012. № 1, − s. 153-159.; Hacıyev, R.S. “Millət” anlayışına dair (sosial-fəlsəfi təhlil) // − Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, − 2013. № 1, − s. 147-153.

[56] Гаджиев, Р.С. О содержании социокультурных систем // – Москва: Вопросы философии, – 2018. №11, – с. 20.

təşəkkülü, ana və ata xətli qəbilə tiplərinin yaranması kimi həlli çətin problemlərin araşdırılması məsələlərini əhatə edir.[57]

Birinci paraqrafda ilk növbədə qeyd olundu ki, erkən qəbilənin yaranması bəşəriyyətin təşəkkülü problemi ilə bilavasitə əlaqədardır və bu əsasda, eləcə də iddiaçının əvvəlki tədqiqat işinin məzmunundan irəli gələrək göstərildi ki, bəşəriyyətin erkən dövründə ibtidai icmaların yaranması prosesi yerli neandertallarla gəlmələrin (yəni erkən homo sapienslərin) çarpazlaşması nəticəsində mümkün olmuşdur.[58]

Birinci paraqrafın mühüm araşdırılma məqamlarından biri də ibtidai icma ilə qəbilənin mahiyyəti baxımından fərqləndirilməsi işi ilə bağlı oldu. Xeyli sayda tanınmış alimlərin bu məsələyə dair tədqiqatlarının tənqidi təhlili zəminində göstərildi ki, bu anlayışlar mahiyyəti üzrə fərqlidir. Müəyyən edildi ki, sosial strukturu baxımından erkən ibtidai icma neoantropların yarada bildikləri ilk sosiomədəni sistem olmuşdur. Göstərildi ki, tarixi prosesin sonrakı mərhələlərində meydana gələn digər sosiomədəni sistemlər, o cümlədən qəbilə də məhz erkən ibtidai icmadan törəmədir. Ümumən ibtidai icma üst paleolitdən başlayaraq insanların ilk növbədə təsərrüfat fəaliyyətini, yəni iqtisadi varlığını təmin etmişdirsə, qəbilənin yaranması daha sonrakı dövrlərin hadisəsi olub (ehtimala görə, mezolit dövründən etibarən), ilk növbədə ibtidai icmaların regenerasiyasını, yəni bioloji varlığını təmin edərək, tabular (yəni qadağalar) vasitəsilə ekzoqamiyanın qorunmasına və ya icmalararası cinsi əlaqələrin nizamlanması işinə xidmət etmişdir. Bu məsələyə dair tanınmış etnoqraf V.P.Kabonun lakonik fikirləri yerində səslənir: "*Obyektiv qan qohumluğu yalnız kollektiv şüurdan keçib sosial institut kimi formalaşdıqdan sonra ekzoqam qrup qəbiləyə*

---

[57] Hacıyev, R.S. Qəbilənin təşəkkülü haqqında // − Bakı: Elmi əsərlər. AMEA Tarix İnstitutu, − 2014. 51 cild, − s. 3-13.; Hacıyev, R.S. Erkən ibtidai icmanın təşəkkülü məsələsinə dair (sosial-fəlsəfi təhlil) // "Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar" mövzusunda I Beynəlxalq elmi konfransın materialları, − Bakı: Nurlan, − 29-30 noyabr, − 2018, − s. 513-521.

[58] Hacıyev, R.S. Tarixi prosesin inkişaf dinamikası və ya qloballaşmaya aparan intellektual təkamül yolu / R.S. Hacıyev. − Bakı: Xəzər Universiteti, − 2015. − s. 37-38.

*çevrilmiş olur*".[59] Burada V.Kabo sosial institut dedikdə əcdadların kultu fenomenini nəzərdə tutur.

Araşdırılan məsələlərdən biri də ana və ya ata xətli qəbilə tipindən hansının daha əvvəl yaranması problemi ilə bağlı oldu. Aparılan tədqiqatlar nəticəsində müəyyən edildi ki, ana xətli qəbilə (qısaca ana qəbilə) tipi daha əvvəl meydana gəlmişdir ki, bu da fərdin hansı icmaya aid olmasının müəyyənləşdirilməsi işinə xidmət etmişdir. Ehtimal olundu ki, mezolitin əvvəllərindən etibarən insanların ana vasitəsilə hansı totemə və ya qəbiləyə aid olmaları tədricən şüurlu şəkildə qavranılmağa başlamışdır.

"**Sosiomədəni sistemlərin erkən dövrünün inkişaf xüsusiyyətləri**" adlı ikinci paraqrafda əsasən arxeoloji, qismən də etnoqrafik materiallar əsasında bəşər tarixinin erkən dövrünün inkişaf xüsusiyyətlərinə nəzər yetirilmişdir. Bu paraqrafda üst paleolit dönəmində yaşamış erkən ibtidai icmaların həyat tərzinin özünəməxsus xüsusiyyətləri ətraflı şəkildə işıqlandırılmışdır.

Əsasən arxeologiya elminin tanınmış mütəxəssislərinin tədqiqatlarının geniş təhlili nəticəsində ayırd edilmişdir ki, solyutre dövrünün (20-17 min illər bundan əvvəl) sonlarından etibarən erkən ibtidai icmaların həyat tərzində və təsərrüfat fəaliyyətində köklü dəyişikliklərdən danışmağa real əsas vardır. Bu kontekstdə qeyd etmək lazımdır ki, həm ovlanılan heyvanların növündə, həm əmək alətlərinin tipində, həm incəsənət nümunələrində təsvir olunan rəsmlərin məzmun və formasında, həm də ümumən həyat tərzində özünü göstərən yeni keyfiyyət dəyişikliklərinin izahında arxeololoqlar daim çətinliklərlə üzləşmişlər. Məsələn, akademik P.P.Yefimenko bildirir ki, "*solyutre dövrünün sonlarından etibarən ovçuluq təsərrüfatının xarakterində baş verən dəyişikliklərlə bərabər, Avropa və Asiyanın bir sıra bölgələrində oturaq həyata üstünlük verən orinyak-solyutre dövrünün insanları madlendən etibarən daha*

[59] Кабо, В.П. Первобытная доземледельческая община / В.П. Кабо. – Москва: Наука, – 1986. – с. 11.

*mobil həyat tərzinə keçid etdilər*".[60] P.P.Yefimenko bu dəyişikliklərin izahında çətinlik çəkməklə yanaşı onu da bildirmişdir ki, insanların həyat tərzində baş verən bu yeniliklər paralel şəkildə Avrasiyanın müxtəlif bölgələrində təzahür etmişdir.[61]

Paraqrafda aparılan təhlillər zəminində gəldiyimiz qənaətə görə, insanların həyat tərzində baş verən qlobal dəyişikliklər daxili amildən, intellektual inkişafdan irəli gələrək ortaya çıxmışdır. Məhz intellektual inkişafın nəzərə alınması əsasında üst paleolitin ikinci yarısında baş verən hadisələrdə sinxronluq amilinin izahı mümkün olmuşdur. Aparılan təhlillər sayəsində göstərilmişdir ki, bəşəriyyətin intellektual təkamülündə immanent qanunauyğunluq əsasında baş verən dəyişiklikləri nəzərə almadan, yəni yalnız xarici amillərdən irəli gəldiyimiz təqdirdə üst paleolit dövründə, eləcə də tarixi prosesin sonrakı inkişaf mərhələlərində insanların həyat tərzi və təsərrüfat fəaliyyətinin şərhi ilə bağlı ortaya çıxan problemlərin ziddiyyətsiz izahını vermək mümkün olmur.

"**Erkən ibtidai icma dövrünün final mərhələsində sosiomədəni sistemlərin inkişafında baş verən qlobal dəyişikliklər və onları şərtləndirən amillər: tənqidi təhlil**" adlı üçüncü paraqraf sosiomədəni inkişafın mezolit mərhələsinə keçid dövründə insanların təsərrüfat fəaliyyətində və dünyabaxışlarında, ümumən həyat tərzində baş verən qlobal dəyişikliklərin araşdırılması məsələlərinə həsr olunmuşdur. Mütəxəssislər, ilk növbədə arxeoloqlar və etnoqraflar sosiomədəni inkişafın mezolit mərhələsinə keçid dövründə insanların təsərrüfat fəaliyyətində və dünyabaxışlarında, ümumən həyat tərzində baş verən qlobal dəyişiklikləri müxtəlif xarici amillərin həlledici təsiri ilə izah etməyə çalışmaqdadırlar.[62]

---

[60] Ефименко, П.П. Первобытное общество / П.П. Ефименко. – Ленинград: Соцэкгиз, – 1938. – с. 518

[61] Yenə orada, – s. 512.

[62] Шнирельман, В.А. Возникновение производящего хозяйства / В.А. Шнирельман. – Москва: Наука, – 1989. – с. 28.; Бадер, Н.О. Мезолит / Каменный век на территории СССР, – Москва: Наука, – 1970. – с. 90.; Бадер, Н.О. Древнейшие земледельцы Северной Месопотамии / Н. Бадер. – Москва: Наука, – 1989. – с. 253.

Aparılan araşdırmalar müvafiq sualların ortaya çıxmasına yol açmışdır - nə üçün əmək alətlərinin texniki imkanlarının qısa zaman kəsiyində keyfiyyətcə yüksək inkişaf səviyyəsinə çatması, yeni növ ov silahlarının və vasitələrinin meydana gəlməsi, ən əsası isə fərdi qaydada ovçuluqla məşğul olma istəyi təqribən e.ə. XIII-IX minilliklərə və ondan sonrakı dövrlərə təsadüf edir? Maraqlıdır ki, baş verən qlobal dəyişikliklər dünyanın müxtəlif bölgələrində sinxron şəkildə təzahür etmişdir, lakin paralellik amilinin hansı səbəbdən özünü büruzə verməsi indiyə qədər cavablandırılmamışdır.[63] Bu proseslərin paralel şəkildə cərəyan etməsi xüsusən incəsənət nümunələrinin timsalında özünü açıq şəkildə göstərir. Bu sahə üzrə tanınmış mütəxəssis A.A.Formozovun tədqiqatları göstərir ki, mezolit dövründə Qobustan qayaüstü rəsmlərində oxla təsvir edilmiş ovçu obrazları eynilə dünyanın müxtəlif bölgələrində bir-birindən asılı olmadan qayalarda, daşlarda və gil qablarda təsvir edilmişdir.[64] Eyni zamanda Formozov təsvirlərin tapıldığı ərazilərin coğrafi müxtəlifliyinə də xüsusi diqqət çəkir (Qobustan, İsveçin cənubu, Afrika, Hindistan, Kiçik Asiya və s.). Maraqlıdır ki, Formozov konverqent səciyyə daşıyan (yəni eyni əlamətlərin bir-birindən asılı olmadan təzahür etməsi) bu hadisələri insan psixikasının vahidliyi prinsipi ilə izah etmişdir.[65]

Üst paleolitin sonlarından başlayaraq kollektiv ov etmə üsulunun əvəzinə fərdi xarakter daşıyan ovçuluq fəaliyyəti özünə geniş yer tapır. Bu mühakimənin doğruluğu isə oxun və kamanın geniş yayılması faktında öz təsdiqini tapır. Araşdırmalarımız göstərdi ki, fərdi ovçuluğun geniş şəkildə yayılması yalnız buzlaqlaşmadan azad olmuş regionlarla məhdudlaşmayıb, dünyanın fərqli iqlim

---

[63] Борисковский, П.И. Древний каменный век Южной и Юго-Восточной Азии / П.И. Борисковский. – Москва: Наука, – 1972. – с. 159.; История первобытного общества. Эпоха первобытной родовой общины / Под ред. академика Ю.В. Бромлея. – Москва: Наука, – 1986. – с. 132.

[64] Формозов, А.А. Искусство эпохи мезолита и неолита / Каменный век на территории СССР, – Москва: Наука, – 1970. – с. 203.

[65] Yenə orada, – s. 203.

zonalarında da özünü aydın şəkildə büruzə vermişdir.[66] Sual olunur: nə üçün on və hətta yüz min illər ərzində yalnız kollektiv ov fəaliyyəti ilə məşğul olan icma üzvləri birdən-birə, yəni qısa zaman kəsiyində fərdi ova meyl göstərmişlər? Digər tərəfdən, tropik və subtropik bölgələrdə əvvəllər də həm dənli bitkilər, həm də qida mənbəyi kimi istifadə edilən yerli floranın müxtəlif növləri mövcud olmuşdur. Konkret olaraq Ön Asiya və Cənubi-Şərqi Asiya regionları üçün aparılan elmi tədqiqatlar belə deməyə tam əsas verir.[67] Lakin nədənsə, e.ə. X minillikdən başlayaraq dünyanın fərqli regionlarında, özü də sinxron şəkildə həmin bitkilərin domestikasiya edilməsinə, eləcə də heyvanların əhliləşdirilməsinə meyl yaranmışdır.[68] Qeyd edək ki, dünya elmi hələ ki, bu və yuxarıda qaldırılan digər analoji sualların qane edəcək bir səviyyədə cavablandırılmasına nail ola bilməmişdir.

Paraqrafın gedişi boyu konkret elmi tədqiqatların tənqidi təhlili əsasında belə qənaətə gəldik ki, mezolitdən etibarən insanların fərdi qaydada ovçuluqla və balıqçılıqla məşğul olması, qidanın istehsal edilməsinə doğru ilk cəhdlərin atılması, ölmüş insanların artıq kollektiv şəkildə, yəni qəbiristanlıqda basdırılması, əcdadlar kultunun meydana gəlməsi, qayaüstü rəsmlərdə kişilərin ov etməsi təsvirlərinin dünyanın müxtəlif bölgələrində və sinxron şəkildə özünü büruzə verməsi, təsviri incəsənətdə perspektiv kompozisiyaların yer alması, eləcə də digər bu kimi yeni hadisələr və onların ümumən polisentrik səciyyə daşıması təsadüfi olmayıb, bəşəriyyətin intellektual təkamül peosesində "8-9" yaşlarında olması

---

66 История первобытного общества. Эпоха первобытной родовой общины / Под ред. академика Ю.В. Бромлея. – Москва: Наука, – 1986. – с. 151-156.

67 Палеолит Ближнего и Среднего Востока / составители И.И. Коробков, В.А. Ранов. – Ленинград: Наука, – 1978. – с. 211, с. 216.; Чеснов, Я.В. Земледельческие культуры как этногенетический источник // Ранняя этническая история народов Восточной Азии, – Москва: Наука, – 1977. – с. 115-120.

68 Васильев, С.А. Сибирь и первые американцы / С.А. Васильев, Ю.Е. Березкин, А.Г. Козинцев – С.-Петербург: Филологический факультет, – 2011. – с. 152.

ehtimalı əsasında ziddiyyətsiz şəkildə izahını tapa bilir. Biz hesab edirik ki, məkanın predmetli və intuitiv qavrayışından azad olmadan, yəni əyani-abstrakt təfəkkürə keçmədən və bu əsasda məskunlaşdığı məkanda müstəqil oriyentasiya etmə qabiliyyətinə malik olmadan fərdi qaydada ov etmə fəaliyyəti də şübhəsiz ki, baş tuta bilməzdi. Təsadüfi deyil ki, on və yüz min illər ərzində insanların ovçuluqla məşğul olması sırf kollektiv fəaliyyət üzərində qurulmuş, lakin məkanın "bu yerindən" və zamanın "indisindən" azad olma qabiliyyətinin meydana gəlməsi hesabına insanlar artıq fərdi qaydada ovçuluq etməyə və digər yeni fəaliyyət sahələri ilə məşğul olmağa imkan tapmışlar.[69]

Dissertasiya işinin "**Son ibtidai icma dövründə sosiomədəni sistemlərin inkişafı**" adlı üçüncü fəsli üç paraqrafdan ibarətdir. "**Sosiomədəni sistemlərin inkişafı neolit inqilabı dövründə**" adlı birinci paraqrafda sosiomədəni sistemlərin növbəti inkişaf mərhələsinin öyrənilməsi istiqamətində əvvəlcə neolit inqilabının məzmununa diqqət yetirilmişdir. Üzə çıxarılmışdır ki, neolit inqilabının baş verməsi səbəbi yalnız qidanı istehsal edən təsərrüfat sisteminə keçidlə müəyənləşməyib, məzmunu baxımından daha geniş əhəmiyyət daşıyır. Aydınlaşdırılmışdır ki, neolit inqilabını səciyyələndirən mühüm xüsusiyyətlər qidanı istehsal edən sosiomədəni sistemlərlə yanaşı, yüksək ixtisaslı mənimsəmə təsərrüfatı ilə məşğul olan ibtidai icmalarda da özünü büruzə vermişdir. Bu əhəmiyyətli xüsusiyyətlərdən ən önəmlisi isə atrıq məhsulun əldə olunması ilə bağlıdır. Belə ki, artıq məhsulun əldə olunması xüsusiyyəti həm qidanı istehsal edən, həm də mənimsəmə təsərrüfatı ilə məşğul olan sosiomədəni sistemlərdə özünü büruzə vermişdir. Başqa sözlə, neolit inqilabı dövründə ibtidai icmaların həyat tərzində baş vermiş keyfiyyətli dəyişikliklər təsərrüfat sisteminin tipindən asılı olmayaraq həm istehsal edən, həm də yüksək effektli mənimsəmə təsərrüfatı ilə məşğul olan sosiomədəni

---

[69] Hacıyev,  R.S. Tarixi prosesin inkişaf dinamikası və ya qloballaşmaya aparan intellektual təkamül yolu / R.S. Hacıyev. − Bakı: Xəzər Universiteti, − 2015. – s.162-218.

sistemlərdə özünü büruzə vermişdir.[70] Neolit dövründə ibtidai insanların həyat tərzində baş vermiş keyfiyyətli dəyişikliklər sırasında sosial təbəqələşmənin yer almasını, gil qabların istehsalını, müxtəlif bəzək əşyalarının düzəldilməsini və ümumən sənətkarlığın meydana gəlməsini, metalın emalını, icmalar arasında mal mübadiləsinin aparılmasını, fərdi mülkiyyətin yaranmasını qeyd etmək mümkündür. Araşdırmalarımız nəticəsində o da müəyyən olundu ki, haqqında danışdığımız keyfiyyətli dəyişikliklər dünyanın fərqli bölgələrində bir-birindən asılı olmadan və sinxron şəkildə təzahür etmişdir. Sinxronluq amilinin izahını isə xarici amillər və ya onların kompleks təsiri vasitəsilə vermək mümkün olmur, çünki neolit dövründə icmaların həyat tərzində baş vermiş bu inqilabi dəyişikliklər Şimali-Şərqi Afrikada, Yaxın və Orta Şərqdə, Uzaq-Şərqi Asiyada və Mezoamerikada, yəni dünyanın iqlimi fərqli olan müxtəlif regionlarında və eyni zamanda təzahür etmişdir. Təsadüfi deyil ki, Nobel mükafatı laureatı təbiətşünas alim İ.Priqojin neolit dövründə cərəyan edən hadisələrin paralelliyi ilə bağlı təəccübünü gizlədə bilməmişdir: "*Məni həmişə təəccübləndirmişdir ki, neolitin bifurkasiyası eyni bir dövrdə, lakin müxtəlif formalarda − Orta Şərqdə, Çində və ya Kolumbaqədərki Amerikada − baş vermişdir*".[71] Bu baxımdan ortaya məntiqi bir sual çıxır − neolit dövründə baş verən proseslərin paralellik xüsusiyyətini hənsı səbəblə izah etmək mümkündür? Əgər qeyd etdiyimiz dəyişikliklər yalnız sosioiqtisadi zəmində və ya iqlim amili əsasında baş versə idi, o halda həyat tərzində ortaya çıxan yenilikləri təsərrüfat tipinin dəyişməsi və ya digər xarici amil vasitəsilə izah etmək məntiqli olardı. Lakin məsələnin çətinliyi elə ondadır ki, neolitdə baş verən proseslər paralel şəkildə, dünyanın müxtəlif regionlarda və fərqli təsərrüfat sistemləri daxilində baş qaldırmışdır. Deməli, burada başlıca səbəb məhz şüur amili ilə, daha dəqiq desək, ibtidai insanların təfəkküründə

[70] Hacıyev, R.S. Tarixi prosesin inkişaf dinamikası və ya qloballaşmaya aparan intellektual təkamül yolu / R.S. Hacıyev. − Bakı: Xəzər Universiteti, − 2015. – s. 244-247.

[71]Пригожин, И.Р. Сетевое общество // – Москва: Социологические исследования, – 2008. №1, – с. 27.

baş qaldıran yeni intellektual qabiliyyətlərlə bağlı olmalıdır.[72] Hesab edirik ki, e.ə.VII minillikdə bəşəriyyətin intellektual təkamülündə "10" yaşın tamam olması ilə əlaqədar insanlarda keyfiyyətcə yeni idraki qabiliyyətlərin baş qaldırması özünü büruzə vermişdir. İddiaçının qənaətinə görə, təsərrüfat tipindən asılı olmayaraq dünyanın müxtəlif bölgələrində paralel şəkildə yeni həyat tərzinin meydana gəlməsi mahiyyəti baxımından xarici amillərdən və ya onların kompleks təsirindən asılı olmayıb, məhz daxili, yəni ruhi və ya intellektual faktordan qaynaqlanmışdır. Bu daxili faktoru müəyyən edən isə bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezasıdır.[73]

Beləliklə, neolitdə baş vermiş və təzahürü baxımından qlobal səciyyə daşıyan ictimai hadisələri xarici amillər vasitəsilə deyil, məhz daxili faktordan irəli gələrək, yəni bəşəriyyətin intellektual təkamülündə müvafiq yaş mərhələsinin yaşanması əsasında izah etmək məqsədəuyğun olardı. Başa düşdüyümüz qədər, məhz intellektual inkişaf prosesində bəşər övladının "10" yaşının tamam olması nəticəsində insanlarda erkən "şəxsi" təsəvvürlər baş qaldırmış və beləliklə də, haqqında danışdığımız keyfiyyətcə yeni hadisələrin təzahür etməsinə imkan yaranmışdır. Şübhəsiz ki, neolit dövrü üçün şəxsiyyətin formalaşması amilindən deyil, bu istiqamətdə yalnız erkən təzahürlərin və ya ilkin rüşeymlərin ortaya çıxmasından və ya fərdiyyətçilik qabiliyyətinin təzahür etməsindən söhbət açmaq daha düzgün olardı.

"**Nikah və ailənin tarixi təşəkkülü və təzahür formalarının inkişaf dinamikası**" adlı ikinci paraqraf nikah və ailə institutlarının tarixi təşəkkülü və təzahür formalarının inkişafı problemlərinin həllinə həsr olunmuşdur.[74] İlk növbədə göstərilmişdir ki, tarixi

---

[72] Hacıyev, R.S. Tarixi prosesin inkişaf dinamikası və ya qloballaşmaya aparan intellektual təkamül yolu / R.S. Hacıyev. − Bakı: Xəzər Universiteti, − 2015. – s. 256-262.

[73] Hajiyev, R.S. On a regularity of the intellectual evolution of mankind // – Sofia: Balkan Journal of Philosofy, – 2020. №2(12), – pp. 99-110.

[74] Hacıyev, R.S. Nikahın və ailənin mənşəyi haqqında (sosial-fəlsəfi təhlil) // YUNESKO-nun təsis etdiyi "Ümumdünya fəlsəfə günü"nə həsr olunmuş Beynəlxalq elmi-nəzəri konfransın materialları, − Bakı: Təknur, −2011. − s. 109-120.

prosesin erkən mərhələsində (əsasən üst paleolit dövrü nəzərdə tutulur) ibtidai icmalarda əvvəlcə qrupşəkilli nikah sistemi mövcud olmuşdur. Belə bir nikah sistemində əvvəlcədən müəyyənləşdirilmiş qaydada yalnız iki erkən ibtidai icmanın kişi və qadınları arasında cinsi əlaqələrə icazə verilmiş və bu zaman ekzoqamiya prinsipinə (yəni icmadaxili cinsi əlaqəyə qoyulan qadağaya) qəti şəkildə əməl olunmuşdur. Daha sonra qrupşəkilli nikahdan ikili və ya cüt ailənin yaranması məsələsinə aydınlıq gətirilmişdir. Göstərilmişdir ki, mezolitdən etibarən qrupşəkilli nikah daxilində cüt ailənin yaranması prosesi pay mübadiləsi və ya digər sosioiqtisadi əsaslarda deyil, ibtidai insanlarda fərdiyyətçilik qabiliyyətinin meydana çıxması zəminində mümkün olmuşdur. Əsaslandırılmışdır ki, fərdiyyət amilinin yoxluğu şəraitində ikili ailənin təşəkkül tapması heç cür reallaşa bilməzdi.

Göstərilmişdir ki, cüt ailənin cəmiyyət həyatında tam şəkildə bərqərar olması hələ qrupşəkilli nikahın aradan qalxması demək deyildi. Əksinə, Semyonov göstərir ki, cüt nikahın özünü tənzimləyən də məhz qrupşəkilli nikah olmuşdur.[75] Əslində bu vəziyyət başa düşüləndir, çünki ibtidai icmalarda ekzoqam prinsip həmişə qorunmuşdur. Bu prinsipi qoruyan isə hər bir icmanın özü olmuşdur. Nəzərə alınsa ki, ibtidai icma dövründə heç bir insan müstəqil olmamışdır və istənilən fərd kollektivin qadağaları ilə tam şəkildə hesablaşmışdır, o halda başa düşmək çətin olmaz ki, cüt ailə də iki icmanın qruplararası nikah "müqaviləsi" əsasında qurulmuşdur. Cüt nikah quranların hər birinin mənsub olduğu icmadan iqtisadi, mənəvi və digər əsaslarda asılılığı müvafiq olaraq cüt ailənin davamlılığına imkan verməmiş və bu səbəbdən tərəflərin razılığı ilə onun asanlıqla dağılmasına yol açmışdır.

Paraqrafda daha sonra məntiqi şəkildə ortaya çıxan çətin bir sualın cavablandırılmasına cəhd edilmişdir - necə oldu ki, tərəflərin müstəqilliyi ilə səciyyələnən cüt ailədən sonralar tərəflərdən birinin, yəni kişinin hakimiyyəti ilə idarə edilən monoqam ailə meydana gəldi? Axı kollektivçilik prinsipi hamının bərabər imkanlara malik

---

[75] Семенов, Ю.И. Происхождение брака и семьи / Ю.И. Семенов. – Москва: Мысль, – 1974. – с. 235.

olmasını uzun minilliklər boyu şərtləndirmişdir. Həm cüt ailədə, nə də ondan sonra gələn böyük ailə sistemində cinslərdən hər hansı birinin xüsusi üstünlüyə malik olması üçün iqtisadi, sosial və digər əsaslar mövcud deyildi. Sadəcə ibtidai icma daxilində əvvəllər mövcud olan ana filiasiyasının (yəni ana xətli qəbilənin) ata filiasiyası ilə (yəni ata xətli qəbilə ilə) əvəz edilməsi özünə yer almışdı. Etnoqrafik materiallar isə göstərir ki, həm ana qəbilə, həm də ata qəbilələrdə xüsusi mülkiyyətin yaranması özünə geniş yer tapmışdır.[76]

İrəli sürdüyümüz bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezasından çıxış etdiyimiz təqdirdə qaldırılan sual, zənnimizcə, öz məntiqi cavabını tapa bilir. Kişilərin ictimai həyatda daha aktiv və aparıcı qüvvəyə çevrilməsi, zənnimizcə, intellektual inkişaf prosesində bəşəriyyətin müəyyən yaş səviyyəsinə çatmasından irəli gəlir. Çünki kişilər intellektual inkişafdan bəhrələnərək və bunun əsasında tədricən öz maraqları müstəvisindən çıxış etməyi bacararaq, öz aktivliyinə və fiziki güclərinə arxalanaraq, artıq icmadan asılı olmayıb müstəqil qərarlar vermək qabiliyyətinə yiyələnərək və bu əsasda istehsalın artan imkanlarından yararlanaraq, tədricən uşaqlarla bərabər qadınların da öz şəxsi iradələrinə tabe etdirilməsinə nail oldular. Bir daha təkrar edək ki, fərdi maraqların və dünyabaxışının yoxluğu şəraitində kişilərin üstünlükləri sadəcə ortaya çıxa bilməzdi (çünki kollektiv şüur buna yol verməzdi). Ona görə ki, əvvəllər yalnız ibtidai icma mövcud idi və burada kollektivizm prinsipi əsasında birgə (yəni kişilərlə qadınların birgə iştirakı əsasında) təsərrüfat fəaliyyəti aparılır və hamının bərabər "hüquqları" təmin edilirdi. Tərəfimizdən irəli sürülən fikirlərin doğruluğu isə etnoqrafik materiallar əsasında öz təsdiqini tapa bilir. Belə ki, ata qəbilə sistemində yaşayan Afrikanın bambuti piqmeylərinin həyat tərzini uzun illər tədqiq edən J.de Liv aşkar etmişdir ki, aborigenlərin kosmoqonik və etnogenetik miflərində kişilərlə qadınların birgə ovçuluqla məşğul olmalarından, yəni

---

[76] Алексеев, В.П. История первобытного общества: Учебник для вузов / В.П. Алексеев, А.И. Першиц. – Москва: Высшая школа, – 1990. – с. 294-295.

kollektiv təsərrüfat fəaliyyətindən söhbət aparılır.[77] J.de Livə görə, həmin dövrün icma həyatında qadınların nüfuzu olduqca yüksək olmuşdur. Lakin sonralar oxun və kamanın ortaya çıxması nəticəsində fərdi ovçuluq fəaliyyətinin effektivliyinin artması icma həyatında kişilərin qadınlardan üstün duruma keçməsinə imkan yaratmışdır. Çünki individual ov fəaliyyəti daha çox fiziki qüvvə tələb edirdi. Nəticədə, təsərrüfat fəaliyyətində qadınların rolunun aşağı düşməsi onların sosial vəziyyətinə təsir göstərmiş və icmada patriarxal münasibətlərin formalaşmasına yol açmışdır.[78] J.de Livin qənaətinə düzəliş edərək, yəni ona əks mövqedən çıxış edib bildirmək olar ki, məhz əyani-abstrakt intellektdən irəli gələn fərdi düşüncənin və bunun da əsasında individual təşəbbüskarlığın meydana gəlməsi nəticəsində oxun və kamanın kəşf edilməsi mümkün olmuş və beləliklə də, kişilərin öz fiziki imkanlarından daha çox yararlanmalarına imkan açılmışdır. Belə demək mümkünsə, üst paleolitin sonlarından etibarən fərdi dünyabaxışın meydana çıxması insanlarda müstəqil düşünmənin və hərəkət etmənin baş qaldırması ilə nəticələndi ki, bundan da daha çox kişilər yararlana bildilər. Belə ki, daha çox fiziki gücə və azad hərəkət etmək imkanlarına malik kişilər təsərrüfat fəaliyyətində və ümumən ictimai həyatda təşəbbüsü ələ alaraq, əvvəlcə ibtidai icmanın aparıcı qüvvəsinə çevrilmiş oldular (mezolit və neolitdə), sonralar isə tədricən şəxsiyyət amilinin meydana gəlməsi ilə kollektivizm prinsipinə üstün gələrək, ibtidai icma quruluşunun aradan qaldırılmasına və nəticədə, monoqam ailənin, xüsusi mülkiyyətin və dövlətin yaradılmasına müvəffəq oldular.

“**Etnosun və tayfanın tarixi təşəkkül problemləri**” adlı üçüncü paraqrafda tarixi prosesin hansı dövründən etibarən ilk etnosların və tayfaların meydana gəlməsi məsələlərinə cavablar axtarılmışdır. İlk növbədə müəyyən edilmişdir ki, həm etnos, həm də tayfanın yaranması üçün insanlarda özlərini müəyyən sosiomədəni

---

[77] Файнберг, Л.А. Возникновение и развитие родового строя / Первобытное общество, – Москва: Наука, – 1975. – с. 66.
[78] Yenə orada, – s. 67.

birliyin üzvü kimi identifikasiya etməsi qabiliyyəti baş qaldırmalıdır. Bu qabiliyyətin nə vaxt meydana gəlməsinin müəyyənləşdirilməsi işi isə bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezasının tətbiqi vasitəsilə mümkün olmuşdur. Göstərilmişdir ki, yalnız arxeoloji, etnoqrafik və bu problemlərlə əlaqədar digər təbiətşünaslıq elmlərində aparılan tədqiqatlar əsasında etnosun və ya tayfanın nə vaxt meydana gəlməsi məsələsini ziddiyyətsiz şəkildə həll etmək mümkün olmur. Məhz bu səbəbdəndir ki, bəzi alimlər etnosun hətta aşağı paleolitdə meydana gəlməsi kimi (məs., akademik V.P.Alekseyev) yanlış fikirlərin irəli sürülməsinə yol vermişlər.

Bu paraqrafda həm də "etnos" və "tayfa" anlayışlarının differensiasiyası məsələsinə toxunulmuşdur. Bu anlayışların fərqli məzmuna malik olması konkret elmi faktlar əsasında müəyyən edilmişdir. Göstərilmişdir ki, etnos mahiyyəti baxımından mədəni, tayfa isə sosio-potestar sistemlərdir.[79] Üzə çıxarılmışdır ki, tayfanı etnosdan fərqləndirən əsas əhəmiyyətli xüsusiyyət məhz birincidə başçının olması faktı ilə müəyyənləşir. Belə bir metodoloji işin aparılması zəminində artıq etnos və tayfanın tarixi prosesin hansı dönəmindən etibarən təşəkkül tapması məsələsinə aydınlıq gətirilmişdir.

Əvvəlki paraqrafların gedişi zamanı müəyyən edilmişdir ki, mezolit dövrünə qədər insanların təfəkküründə yalnız sinkretik formalı kollektiv şüur mövcud olmuşdur. Artıq mezolitdən etibarən kollektiv şüur daxilində kollektiv özünüdərk hadisəsi baş qaldırmışdır. Arxeoloji tədqiqatlar zəminində kollektiv məzarlıqların məhz mezolitdə meydana gəlməsinin müəyyən edilməsi isə dolayısı ilə insanlarda kollektiv özünüdərk amilinin ortaya çıxmasından xəbər verir. Kollektiv özünüdərki mümkün edən yeganə səbəb isə bəşəriyyətin intellektual təkamül qanunauyğunluğuna əsasən mezolit dövründə insanlarda yeni məkan və zaman qavrayışlarının baş qaldırması amili olmuşdur. Bu həm də insanlarda fərdi özünüdərk

[79] Гаджиев, Р.С. К содержанию понятия этнос (социально-философский анализ) // – Новосибирск: Научный журнал «Серия Философия», Новосибирский Государственный Университет, – 2015. №1, – с. 54-60.

hadisəsinin meydana gəlməsinə imkan yaratmışdır. Digər tərəfdən, fərdi özünüdərk əsasında neolitdən etibarən əvvəlcə klassik qəbilənin, sonra isə tayfanın başçısı meydana gəlmişdir. Bu prosesləri aşağıdakı ardıcıllıqla təqdim etmək mümkündür. Əvvəlcə icma daxilində vahid bir əcdaddan, yəni totem heyvandan yaranma təsəvvürləri baş qaldırmışdır (mütəxəssislərin tədqiqatları əsasında belə qənaətə gəlmək mümkündür ki, bu proses ilk dəfə mezolitdə təzahür etmişdir). Bu fikrin təsdiqi olaraq arxeoloji araşdırmalar göstərir ki, əcdadların kultu fenomeni yalnız mezolit dövründən etibarən ortaya çıxmışdır. Fərdi özünüdərk qabiliyyətinin meydana gəlməsi hesabına artıq neolitdən etibarən başçısı olmayan ana və ya ata xətli qəbilə tiplərini başçısı olan ata qəbilə (yəni klassik qəbilə) əvəz etmişdir. Yuxarıdakı mühakimələrimiz əsasında eynilə anlamaq mümkündür ki, klassik tayfanın da formalaşması neolit dövründən əvvəl baş tuta bilməzdi. Məlumdur ki, yeni yaranan ilk tayfaların başçıları onları təşkil edən güclü qəbilələrin rəhbərlərindən seçilmişdir.

Eyni məntiqlə etnosun təşəkkül tapması məsələsinə də aydınlıq gətirilmişdir. Paraqrafda göstərilmişdir ki, etnosun yaranması üçün etnik özünüdərk hadisəsinin baş tutması əsas şərt kimi çıxış edir. Etnik özünüdərkin ortaya çıxması üçün isə insanlarda istənilən birliyə mənsub olmanın dərk edilməsi qabiliyyəti yaranmalı idi. Başqa sözlə, istənilən formalı özünüdərk prosesinin (yəni həm kollektiv, həm də fərdi əsasda) baş tuta bilməməsi səbəbindən (çünki bunun üçün yeni məkan qavrayışına və əyani-abstrakt təfəkkür qabiliyyətinə malik olmaq şərtdir) etnosun formalaşması hadisəsi də neolitdən tez mümkün deyildi. Beləliklə, paraqrafda aparılan təhlillər əsasında etnos və tayfanın tarixi prosesin hansı mərhələsindən etibarən təşəkkül tapması məsələsinə aydınlıq gətirilmişdir. Əsaslandırılmışdır ki, ilkin etnosların (Şnirelmanın ifadəsi ilə desək "protoetnosların") və tayfaların təşəkkül tapması neolit dövründən etibarən gerçəkləşə bilmişdir.

"**Yazılı tarix dövründə meydana gələn sosiomədəni sistemlərin təşəkkülü və qloballaşma şəraitində inkişafı problemləri**" adlı dördüncü fəsil üç paraqrafdan ibarətdir. "**İlk dövlətlərin və xalqların təşəkkülü məsələləri**" adlı birinci

paraqrafın əsas tədqiqat problemi tarixi prosesdə təşəkkül tapmış ilk dövlətlərin və xalqların hansı səbəbdən məhz e.ə. IV minilliyin sonlarından etibarən sinxron şəkildə yaranması məsələsinə aydınlıq gətirilməsi işi olmuşdur. Qaldırılmış məsələlərin həlli üçün ilk növbədə "dövlət" anlayışının əhəmiyyətli əlamətləri nəzərdən keçirilmişdir. Müəyyən edilmişdir ki, ilk yaranmış dövlətlərin fəaliyyətində mütəxəssislərin üzə çıxardığı üç əhəmiyyətli əlamətin (onlardan birincisi, müəyyən ərazinin mövcudluğu; ikincisi, əhalidən vergilərin tutulması; üçüncü əlamət, administrativ və ya repressiv aparatın mövcudluğudur) heç də hamısı özünü tam şəkildə büruzə vermir. Bu məsələnin araşdırılması prosesində dövlətlərin üç tarixi forması müəyyən edilmişdir: 1. Erkən dövlətlər; 2. Inkişaf etmiş dövlətlər; 3. Yetkin dövlətlər. Daha sonra sosial təkamülün çoxistiqamətli səciyyə daşıması və dövlətə alternativ olan siyasi sistemlərin fərqli təzahür formaları şəklində özünü büruzə verməsi məsələləri araşdırılmışdır. Bu kontekstdə elmi dövriyyəmizə "başçılıq sistemi" (chiefdom) anlayışı daxil edilmişdir. Başçılıq sisteminin məzmununa daxil olan mühüm əlamətlər hərtərəfli şəkildə nəzərdən keçirilmişdir. Aparılmış metodoloji iş əsasında tarixi prosesdə yaranmış ilk dövlətlərin təşəkkül xüsusiyyətlərinə diqqət yetirilmişdir. Eyni zamanda ilk dövlətlərin təşəkkülü prosesində 4 mühüm məqama aydınlıq gətirilməsinə cəhd edilmişdir: 1) ilk dövlətlərin yalnız iri çay hövzələrində meydana gəlməsi ideyası özünü doğrultmur (bu qənaət son dövrün arxeoloji məlumatları əsasında əldə edilmişdir); 2) Mesopotamiyada ilk dövlətlərin yaranması neolit dövrünün üç minillik inkişaf yolunu ehtiva etmişdir. Bundan fərqli olaraq, Qədim Misirdə eyni proseslərin baş tutması üçün cəmi minillik sosiomədəni inkişaf yolu kifayət etmişdir; 3) hansı səbəbdən ilk dövlət başçılarının meydana gəlməsi e.ə. IV minilliyin sonlarında etibarən mümkün olmuşdur?; 4) hansı səbəbdən yuxarıda sadalanan və cavabını gözləyən üç əhəmiyyətli proses, eləcə də ilk dövlətlərin təşəkkül tapması dünyanın fərqli bölgələrində sinxron şəkildə baş vermişdir?

İlk dövlət başçılarının e.ə. IV minilliyin sonlarından etibarən meydana gəlməsi məsələsinin araşdırılması üçün neolitdən etibarən ortaya çıxan qliptika sənətinə (qliptika deyildikdə söhbət daş parçası

üzərində oyma işlərinin aparılmasından alınan əşyalardan gedir) diqqət yetirilmişdir. Neolitdən etibarən hazırlanan daş möhürlərdə bitki və heyvan təsvirləri yer aldığı halda, e.ə. IV minilliyin ikinci yarısından etibarən onların məzmununda artıq antropomorf təsvirlərə üstünlük verilmişdir. Tanınmış mütəxəssis Y.V.Antonova bu barədə aşağıdakıları bildirir: "*Bu dövrün qliptikası dəyişmiş ictimai vəziyyəti əks etdirir, yəni dövlətin bərqərar olmasını və hökmdarın artan rolunu*".[80] Bu və digər məqamların üzə çıxarılması belə qənaətə gəlməyə əsas verir ki, ilk dövlətlərin təşəkkül tapmasında hökmdar amili mühüm rol oynamışdır. Nəticədə, ilk dövlətlərin yaranması üçün tələb olunan üç əlamətə (ərazinin mövcudluğu; əhalidən vergilərin tutulması; administrativ və ya repressiv aparatın mövcudluğu) daha birisinin də əlavə olunması tövsiyyə edilmişdir (hökmdarın meydana gəlməsi amili). Paraqrafda aparılan təhlillər əsasında aşağıdakı qənaət əldə edilmişdir: e.ə. IV minillikdə bəşəriyyətin intellektual inkişafında "11" yaşın" tamam olması ilə şəxsiyyət amilinin ilk təzahürləri özünü büruzə vermiş və nəticədə, ilk hökmdarlar tarix səhnəsinə çıxmış (onların adları eposlara, dastanlara düşmüş; məs., Bilqamıs dastanı) və bununla da ilk dövlətlərin e.ə. IV minillikdə sinxron şəkildə meydana gəlməsi mümkün olmuşdur.

Paraqrafda daha sonra ilk xalqların meydana gəlməsi məsələsi araşdırılmışdır. Göstərilmişdir ki, ilk xalqların formalaşmasında hökmdarların apardığı ideologi iş əhəmiyyətli rol oynamışdır. Xüsusən dini ideologiya vasitəsilə ortaq mifoloji dünyagörüşün formalaşdırılması və bu əsasda xalqın konsolidasiyası siyasəti hökmdar tərəfindən həyata keçirilmişdir.[81] Bu ideoloji zəmində

---

[80] Антонова, Е.В. Представления обитателей Двуречья о назначении людей и глиптика конца IV – первой половины III тысячелетия до н.э. // – Москва: Древние цивилизации: от Египта до Китая, Вестник Древней Истории, – 1997. – с. 498-499.

[81] Кларк, Г. Доисторический мир / Г. Кларк. – Москва: ЗАО Центрполиграф, – 2011. – с. 132.

xalqın özünüidentifikasıyası prosesi baş vermişdir.[82] Müəyyən edilmişdir ki, ilk dövlətlərin etnik tərkibi müxtəlif olmuş, lakin hökmdarın apardığı ideoloji iş sayəsində vahid dövlət dilinin formalaşdırılmasına imkan yaranmışdır. Beləliklə, hökmdarın meydana gəlməsi və dövlətlərin yaranması əsasında ilk xalqların təşəkkül tapması təqribən e.ə. IV minilliyin sonlarından etibarən mümkün olmuşdur.

"**İlk sivilizasiyaların təşəkkülü problemi**" adlı ikinci paraqrafın əsas məqsədi ilk sivilizasiyaların hansı səbəbdən e.ə. IV minillikdə dünyanın fərqli bölgələrində sinxron şəkildə meydana gəlməsi məsələsinə aydınlıq gətirilməsi işi olmuşdur.[83] Müəyyən edilmişdir ki, mütəxəssislərin əksəriyyəti ilk sivilizasiyaların təşəkkül tapmasını neolit inqilabı ilə əlaqələndirmişlər. Burada neolit inqilabı dedikdə ilk növbədə insanların ovçuluq və yığıcılıqdan ərzağın istehsalına keçid etməsi prosesi bəzərdə tutulur. Mütəxəssislər hesab etmişlər ki, neolit inqilabının baş verməsi iqlimdə gedən dəyişiklərlər hesabına mümkün olmuşdur.[84] Lakin araşdırmalarımız nəticəsində müəyyən edilmişdir ki, neolit inqilabının baş verməsi heç də iqlim amili ilə əlaqədar olmamışdır. Müəyyən edilmişdir ki, nəinki iqlim amilinin, ümumiyyətlə istənilən xarici faktorun təsiri nəticəsində ilk sivilizasiyaların dünyanın müxtəlif regionlarında, müstəqil və paralel şəkildə hansı səbəbdən meydana gəlməsi sualını ziddiyyətsiz qaydada cavablandırmaq mümkün olmur. Bu istiqamətdə İngiltərənin Kembric Universitetinin professoru Q.Barkerin tədqiqatlarına diqqət yetirilmişdir. Geniş mənbələrə, faktlara, təhlillərə və elmin son nailiyyətlərinə əsaslanan Q.Barker tədqiqatlarının son nəticəsi kimi belə qənaətə gəlmişdir ki, pleystosenlə holosenin sərhədində əkinçilik və maldarlığın təşəkkül

---

[82] Кривец, Е.А. Основополагающие основания египетской нации // – Томск: Вестник Томского государственного университета. История. – 2014. № 3 (29), – с. 84.

[83] Hacıyev, R.S. İlk sivilizasiyaların təşəkkülü məsələsinə dair (sosial-fəlsəfi təhlil) // – Bakı: İlahiyyat fakültəsinin elmi məcmuəsi, Bakı Dövlət Universiteti. – 2018. № 29, – s. 97-107.

[84] Гринин, Л.Е. Технологический аспект социальной эволюции / Эволюция Земли, жизни, общества, разума. – Волгоград: Учитель, – 2013. – с. 113-114.

tapmasının ən mühüm amili kimi məhz insan intellekti çıxış etmişdir.[85]

Paraqrafda aparılan geniş araşdırmalar və təhlillər bir həqiqəti ortaya çıxarmışdır ki, eyni tipli proseslərin fərqli şəraitdə, fərqli xüsusiyyətlərlə və paralel şəkildə cərəyan etməsi yalnız bir səbəbdən baş verə bilərdi. Bu səbəb e.ə. IV minillikdə bəşəriyyətin intellektual inkişafında "11" yaşın tamam olması amili ilə müəyyənləşir. İlk sivilizasiyaların təşəkkül tapmasında intellekt amilinin oynadığı əhəmiyyətli rol böyük alman tarixçisi E.Mayerin fikirlərində də öz əksini tapmışdır.[86] Burada söhbət tarixin ilk şəxsiyyətlərinin, yəni hökmdarların mühüm rol oynamasından gedir. Göstərilmişdir ki, məhz onların fəaliyyəti sayəsində vahid dilin, mifologiyanın və ideologiyanın formalaşdırılması mümkün olmuşdur. Nəticədə, cəmiyyət daxilində ortaq dəyərlər formalaşdırılmış və bunun da əsasında sivilizasion identikləşməyə imkan yaranmışdır.

Paraqrafda sivilizasiyanın mühüm göstəricisi olan nizamlı yazının meydana gəlməsi prosesi tədqiq edilmişdir. Göstərilmişdir ki, bu proses insan şüurunda baş verən yeni intellektual qabiliyyətin – nəzəri-abstrakt təfəkkürün ortaya çıxması sayəsində mümkün olmuşdur. Məhz nəzəri-abstrakt təfəkkürün və ya refleksiyanın ortaya çıxması hesabına tarixin ilk şəxsiyyətləri meydana gəlmiş, nizamlı yazı kəşf edilmiş, ilk elmi biliklər əldə olunmuşdur. Bununla yanaşı, ilk sivilizasiyalar dövründə dastanların yaranması, hökmdarlara və başçılara həsr olunmuş ilk kurqanların meydana gəlməsi, metallurgiyanın təşəkkül tapması kimi məsələlər də elmi mənbələrə istinadən geniş şəkildə araşdırılmışdır. Paraqrafda aparılan

---

[85] Медовичев, А.Е. Баркер Г. Сельскохозяйственная революция в доисторическую эпоху: почему охотники-собиратели стали земледельцами-скотоводами? // – Москва: Социальные и гуманитарные науки. Отечественная и зарубежная литература. Серия 5: История. Реферативный журнал. –2012. №4, – с. 21-33.

[86] Климов, О.Ю. Дискуссии о путях и факторах модернизации древних обществ: Эдуард Мейер о роли индивидуальности в древней истории // – С.-Петербург: Мнемон: исследования и публикации по истории античного мира. – 2012. № 11, – с. 386.

araşdırmalar və təhlillər ümumən belə qənaətə gəlməyə əsas vermişdir ki, ilk sivilizasiyaların e.ə. IV minillikdə dünyanın müxtəlif bölgələrində bir-birindən asılı olmadan və paralel şəkildə meydana gəlməsini ruhi amil ilə (K.Yaspersin ifadəsidir), bizim ifadə ilə desək, intellektual təkamül prosesində bəşəriyyətin "11" yaşına çatması səbəbi ilə ziddiyyətsiz şəkildə izah etmək mümkündür.

"**Sosiomədəni sistemlər qloballaşma dövründə: qlobalizmin təsiri və dialoq problemləri**" adlı üçüncü paraqrafda tarixi prosesin müasir mərhələsində sosiomədəni sistemlərin qloballaşma şəraitində inkişafı məsələləri, onların dialoqu problemləri araşdırılmışdır. Qaldırılan məsələlərin araşdırılması istiqamətində öncə qloballaşma termininin məzmununa aydınlıq gətirilmişdir. Göstərilmişdir ki, müasir dövrün təbii tarixi prosesi olan qloballaşmanı dünya xalqlarının süni şəkildə mədəni unifikasiyasına yönəldilmiş neoliberal qlobalizm siyasətindən fərqləndirmək lazımdır.[87]

Hazırda dünyada davamlı surətdə həyata keçirilən neoliberal qlobalizm siyasəti digər mədəniyyətlərin, yəni etnosların, xalqların və millətlərin Qərb mentalitetinə və həyat tərzinə uyğun şəkildə düşünməsi və yaşaması niyyətinə xidmət etməkdədir. Təsadüfi deyil ki, bir sıra mütəxəssislər qlobalizmi (bizim nöqteyi-nəzərimizdən, əksər tədqiqatlarda qlobalizm səhvən qloballaşma kimi təqdim olunur) vesternləşmə kimi də ifadə edir və bu zaman daha çox məhz Amerikanın digər mədəniyyətlərin unifikasiyasına yönəldilmiş qlobal ideoloji təsirini nəzərdə tuturlar.[88] Qlobalizmin yaratdığı konvergent və divergent proseslər sosiomədəni sahədə cəmiyyətlərin etnik

---

[87] Гаджиев, Р.С. О глобализации и глобализме // – Минск: Философия и социальные науки. Белорусский Государственный Университет, – 2014. №2, – с. 43-47.; Hajiyev, R.S. On globalization and globalism // "Dialogue and universalism": Journal of the international society for universal dialogue. Warszawa, – 2014. №3, – pp. 174-177.

[88] Гранин, Ю.Д. «Глобализация или вестернизация»? // – Москва: Свободная мысль. – 2013. № 1 (1637), – с. 51-64.; Иноземцев, В.Л. Вестернизация как глобализация и «глобализация» как американизация // – Москва: Вопросы философии. – 2004. № 4, – с. 58-69.; Аббасов, А.Ф. Демократия: наличная и должная / А.Ф. Аббасов. – Баку: Адилоглы, – 2005. – с. 66.

fraqmentasiyasına (yəni sosiumun etnik zəmində parçalanmasına) yol açır, "*özünəməxsusluqdan uzaqlaşmanı gücləndirir, coğrafi və iqtisadi vəziyyətindən, siyasi quruluşundan, habelə milli mentalitetindən asılı olmayaraq cəmiyyəti qərbləşdirir*".[89]

Qlobalizmin təsiri nəticəsində meydana çıxan problemlərin uğurla aradan qaldırılması xeyli dərəcədə mədəniyyətlərarası dialoqun necə həyata keçirilməsindən asılıdır.[90] Sevindirici haldır ki, mədəniyyətlərarası dialoqun qurulması işinə Azərbaycan Respublikası öz töhfəsini verməkdədir və bu istiqamətdə dünyada aparıcı rolunu ardıcıl şəkildə davam etdirməkdədir. Digər tərəfdən, qlobalizmin unifikasiyaedici təsiri altında dünyada mədəni müxtəlifliyin, etnik və konfessional rəngarəngliyin qorunması xeyli dərəcədə dövlətlər tərəfindən həyata keçirilən multikulturalizm siyasətindən asılıdır. Bu məsələdə də Azərbaycanda reallaşdırılan multikulturalizm siyasəti dünya dövlətləri üçün bir nümunə rolunu oynamaqdadır.[91] Azərbaycanda multikulturalizm siyasətinin həyata keçirilməsi xalqımızın çoxəsrlik tolerantlıq ənənələrinə əsaslanır. Bu kontekstdə Azərbaycan Respublkasının Prezidenti cənab İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunun açılışı ilə əlaqədar söylədiyi nitqində belə deyilmişdir: "*Azərbaycanda bütün xalqlar dostluq, mehribanlıq şəraitində, bir ailə kimi yaşayır. Heç vaxt Azərbaycanda dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmayıb və bu, bizim böyük sərvətimizdir... Əsrlər boyu Azərbaycanda multimədəniyyətli cəmiyyətlər mövcud olub. Xalqlar arasındakı dostluq və həmrəylik bunun bariz nümunəsidir*".[92] Azərbaycanda multikulturalizm siyasətinin əsası Ümummilli lider

---

[89] Mehdiyev, R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri / R.Ə. Mehdiyev. – Bakı: XXI - Yeni Nəşrlər Evi, – 2005. – s. 129.

[90] Xəlilov, S.S. Sivilizasiyalararası dialoq / S.S. Xəlilov. − Bakı: Adiloğlı, − 2009. − 252 s.

[91] Мамедзаде, И.Р. О философии мультикультурализма // – Москва: Вопросы философии, – 2016. № 10, – с. 203-208.

[92] Əliyev, İ. İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimində nitqi, 02 oktyabr 2014-cü il // URL: https://president.az/articles/13008 (son müraciət tarixi: 22.04.2021)

Heydər Əliyev tərəfindən qoyulmuşdur.[93] Bu siyasi kurs hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimiz tərəfindən aparılan multikulturalizm siyasətinin uğurla həyata keçirilməsi eyni zamanda Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev adına Fondun Prezidenti Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyəti ilə bağlıdır. Bu yorulmaz fəaliyyətin bir nümunəsi kimi Mehriban xanım Əliyevanın 12 iyun 2015-ci ildə Birinci Avropa Oyunlarının rəsmi açılış mərasimindəki çıxışından bir məqamı qeyd etmək olar: "*Azərbaycan zəngin tarixə, mədəniyyətə, adət və ənənələrə malik ölkədir. Multikulturalizm və tolerantlıq, dostluq və qonaqpərvərlik, harmoniya və həmrəylik Azərbaycanın həyat tərzinin ayrılmaz hissəsidir*".[94]

Qloballaşma şəraitində sosiomədəni sistemlərin gələcək inkişafının iki əsas ssenari xəttini müəyyən etmək mümkündür: subyektiv inteqrasiya və təbii inteqrasiya. Birinci xətt və ya subyektiv inteqrasiya Qərb sivilizasiyası tərəfindən aparılan neoliberal siyasətdir, yəni qlobalizmdir ki, bu təmayül mədəniyyətlərin homogenizasiyasına doğru istiqamətlənmişdir. İkinci istiqamət, yəni təbii inteqrasiya sosiomədəni sistemlərin özünəməxsusluğunu qəbul edən münasibətlərə əsaslanır. Ikinci istiqamət sosiomədəni sistemlər arasındakı münasibətlərdə tolerantlıq, mədəni müxtəliflik və özünəməxsusluq prinsiplərinin qorunmasını və reallaşmasını nəzərdə tutur. Təbii inteqrasiyanın immanent əsasını isə dünyada yaşayan bütün insanların vahid psixikaya və ya intellektə malik olması amili təşkil edir.[95] Aydındır ki, yalnız ikinci istiqamətin reallaşacağı təqdirdə mədəniyyətlərin təbii inkişafı təmin edilər, onların özünəməxsusluğu qorunar və

---

[93] Abdullayev, K. Azərbaycan multikulturalizminin siyasi banisi // Azərbaycan, − 2015, 1 may. – s. 3.

[94] Əliyeva, M. Mehriban Əliyevanın 12 iyun 2015-ci il Birinci Avropa Oyunlarının rəsmi açılış mərasimində çıxışı // URL: http://azertag.az/xeber/Baki_2015_birinci_Avropa_Oyunlarinin_tenteneli_achilis_merasimi_olub_Azerbaycan_Prezidenti_Ilham_Aliyev_Oyunlari_achiq_elan_edib_VIDEO-863390 (son müraciət tarixi: 22.04.2021)

[95] Гирц, К. Интерпретация культур / К. Гирц. – Москва: РОССПЕН, – 2004. – с. 76-83.

konstruktiv dialoqu baş tuta bilər. Əlbəttə ki, bu yolda dünya liderlərinin aparacağı sülhsevər siyasətdən, tolerantlığa söykənən fəaliyyətdən də çox şey asılı olacaqdır.[96] Belə siyasət günün tələbidir, çünki professor Ə.Abbasov demişkən: "*dünya qlobal sinergizmə ehtiyaclıdır*".[97]

"**Sosiomədəni sistemlərin təşəkkül dinamikası tarixi prosesin dövrləşdirilməsi kontekstində**" adlı beşinci fəsil iki paraqrafdan ibarətdir. "**Tarixi prosesin dövrləşdirilməsinə dair aparıcı konsepsiyaların sosiomədəni sistemlərin tarixi təşəkkülü kontekstində təhlili**" adlı birinci paraqrafda tarixi prosesin dövrləşdirilməsini ehtiva edən aparıcı sosial təkamül nəzəriyyələrindən və onların sosiomədəni sistemlərin tarixi inkişafını necə izah edə bilməsi məsələlərindən bəhs olunur. İlk növbədə "tarixi proses" anlayışına və tarixi prosesin subyekti məsələsinə aydınlıq gətirilir. Göstərilir ki, tarixə prosesə dair mövcud yanaşmaları onun dövrləşdirilməsinə həsr olunmuş baxışlardan fərqləndirmək lazımdır. Daha sonra bildirilir ki, tarixi prosesin dövrləşdirilməsi ilə bağlı irəli sürülmüş baxışları, nəzəriyyə və konsepsiyaları hərəkətverici qüvvənin təyinatına müvafiq iki əsas istiqamətə ayırmaq mümkündür: internalist və eksternalist. İnternalist mövqedən çıxış edənlər üçün bəşər tarixində ictimai inkişafın hərəkətverici qüvvəsi kimi daxili amil, yəni vahid bəşər ruhu, zəkası və ya intellekti çıxış edir. Eksternalist mövqedən irəli gələnlər üçün isə tarixi prosesin inkişafını xarici amillər müəyyən edir.[98] Bu zaman xarici determinantlar kimi daha çox iqtisadi, texniki-texnoloji, demoqrafik və təbii-ekoloji amillər qəbul edilir.

---

[96] Гаджиев Р.С. Роль лидеров в диалоге культур в эпоху глобализации // "Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf" mövzusunda keçirilmiş Beynəlxalq konfransın materialları, – Bakı: Təknur, – 2012, – s. 39-42.

[97] Abbasov, Ə.F. Dünya qlobal sinergizmə ehtiyaclıdır / Dünya. Cəmiyyət. Fəlsəfə. (məqalələr toplusu). AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, − Bakı: Nafta-Press, − 2004. − s. 25.

[98] Hacıyev, R.S. Tarixi prosesin dövrləşdirilməsinə dair eksternalist istiqamətli nəzəriyyələrin fəlsəfi təhlili // – Bakı: Elmi əsərlər (Beynəlxalq elmi-nəzəri jurnal). AMEA Fəlsəfə İnstitutu, – 2018. №2(31), – s. 90-95.

Paraqrafda öncə eksternalist amildən irəli gələn mütəfəkkirlərin baxışlarına nəzər yetirilir. Bu istiqamətdə marksizm, texnoloji determinizm, dünya-sistem analizi və digər müasir sosial təkamül nəzəriyyələri ətraflı təhlil edilir. Göstərilir ki, bu nəzəriyyə və konsepsiyalardan heç biri tarixi prosesdə sinxron şəkildə təzahür etmiş və qlobal əhəmiyyət daşımış sosiomədəni hadisələrin hansı səbəbdən baş verməsi sualını ziddiyyətsiz şəkildə cavablandıra bilmir. Vurğulanır ki, eksternalist yönlü aparıcı nəzəriyyələrin hamısına bir ciddi qüsur xasdır – bu konsepsiyalar ibtidai insanların yığıcılıq fəaliyyətindən ərzağın istehsalına keçidi prosesini, yəni neolit inqilabının baş verməsi səbəbini ziddiyyətsiz olaraq izah edə bilmirlər.

Paraqrafda daha sonra internalist amildən irəli gələn mütəfəkkirlərin baxışlarına nəzər yetirilir. Bu istiqamətdə mühüm əhəmiyyət daşıyan O.Kontun, xüsusən də G.Hegelin və A.Veberin konsepsiyaları ətraflı şəkildə təhlil edilir. Konkret misallar zəminində əsaslandırılır ki, internalist yönlü nəzəriyyələr də bu problemin həlli istiqamətində real nəticələr əldə edə bilməmişlər (bunun səbəbidir ki, ictimai inkişafın başlıca meyarını ümümbəşəri zəkanın və ya intellektin inkişafında görən bu konsepsiyalar XX əsrin ikinci yarısından etibarən demək olar ki, öz əvvəlki nüfuzunu itirməkdədirlər). Qeyd edilir ki, R.Aronun, tanınmış antropoloq C.Styuardın və xüsusən də K.Popperin sosial təkamül və istorisizmlə bağlı tənqidi fikirləri (məşhur metodoloq tarixi prosesə dair fikirlərində vahid bəşər tarixinin yoxluğu mövqeyindən irəli gəlmişdir) tarixi prosesdə universal qanunların üzə çıxarılması məsələsinə öz mənfi təsirini göstərməkdədir.[99] Bununla yanaşı hesab edirik ki, tarixi prosesin dövrləşdirilməsi ilə bağlı universal səciyyəli internalist nəzəriyyələr hələ də öz əhəmiyyətini itirməmişdir. Bu

---

[99] Арон, Р. Введение в философию истории / Р. Арон. – Москва: ПЕР СЭ, – С.-Петербург: Университетская книга, – 2000. – 543 с.; Steward, J. Theory of CultureChange / J. Steward. Urbana: University of Illinois Press, – 1955. – 256 p.; Поппер, К. Нищета историцизма / К. Поппер. – Москва: Прогресс, – 1993. – с. 130-132.; Поппер, К. Открытое общество и его враги [в 2 томах] / К. Поппер. – Москва: Феникс, – т.2. – 1992. – с. 312.

kontekstdə müasir dövrün görkəmli filosofu Y.Habermasın fikirləri diqqət çəkir: "*XVIII əsrin tarix fəlsəfəsi və bəşər tarixinin yenidən qurulmasına yönəlmiş XIX əsrin sosial nəzəriyyələri elə bir təməl yaratdılar ki, qazanılmış bu təcrübə XX əsrdə nəinki köhnəlmədi, hətta daha da aktuallaşdı*".[100]

Aparılan təhlillər zəminində paraqrafın sonunda aşağıdakı nəticə əldə edildi: tarixi prosesdə mərhələli və sinxron şəkildə təzahür edən qlobal hadisələrin baş verməsi səbəbinin, eləcə də insan cəmiyyətinin bir inkişaf mərhələsindən digərinə keçidinin ziddiyyətsiz şəkildə izahını iddiaçı tərəfindən irəli sürülən bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezası əsasında vermək mümkündür. Eyni zamanda bu hipoteza tarixi prosesdə ardıcıl şəkildə meydana gələn müxtəlif tipli sosiomədəni sistemlərin hansı səbəbdən təşəkkül tapması məsələsinə də aydınlıq gətirməyə imkan verir.

"**Sosiomədəni sistemlərin tarixi təşəkkül dinamikası intellektual təkamülün yaş dövrləşdirilməsi hipotezası kontekstində**" adlı ikinci paraqrafda iddiaçı tərəfindən irəli sürülən bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezası əsasında sosiomədəni sistemlərin tarixi təşəkkül dinamikası təhlil edilir.

Sosial təkamülün və ya tarixi prosesin dövrləşdirilməsi məsələsi ictimai inkişafda baş vermiş və bu gün də cərəyan edən qlobal əhəmiyyətli hadisələrin izahı və dərk edilməsi baxımından olduqca mühüm əhəmiyyət daşıyır. Bu qənaəti bir sıra tanınmış alimlər öz əsərlərində qeyd etməkdədirlər.[101] Sosial təkamüldə istənilən dövrləşdirilmənin aparılmasında başlıca məqsəd

---

[100] Хабермас, Ю. О субъекте истории. Краткие замечания по поводу ложных альтернатив / Философия истории. Антология, – Москва: Аспект Пресс, – 1995. – с. 284.

[101] Бентли, Дж. Межкультурные взаимодействия и периодизация Всемирной истории / Время мира. Новосибирск: Сибирский хронограф, – 2001. Вып. 2, – с. 171–203.; Геллнер, Э. Структура человеческой истории / Время мира. – Новосибирск: Сибирский хронограф, – 2001. Вып. 2, – с. 80-90.; Грин, В. 2001. Периодизация в европейской и мировой истории / Время мира. – Новосибирск: Сибирский хронограф, – 2001. Вып. 2, – с. 39–79.

sosiomədəni hadisələri sinxron və diaxron yanaşma vasitəsilə müəyyən meyarlar (intellektual, iqtisadi, texniki-texnoloji və s.) zəminində sistemləşdirməkdir ki, bunun da əsasında tarixi prosesi dərk etmək, onun inkişaf qanunauyğunluqlarını müəyyənləşdirmək, sosiomədəni sistemlərin yaranması səbəblərini üzə çıxarmaq mümkün olur. Bu kontekstdə dövrləşdirilmənin təsnifatdan fərqləndirilməsi məsələsinə diqqət yetirilməsi mühüm metodoloji əhəmiyyət daşıyır. Belə ki, təsnifatın aparılmasında başlıca məqsəd eyni tipli sosiomədəni sistemlərin oxşar və fərqli cəhətlərinin üzə çıxarılması əsasında onların sistemləşdirilməsini həyata keçirməkdir ("Qərbin qürubu" əsərində O.Şpenqler tərəfindən sivilizasiyaların özəlliklərinin səciyyələndirilməsi əsasında onların təsnifatının aparılması bu işin ən bariz nümunələrindən biridir).[102] Bu baxımdan lokal sivilizasiyalar nəzəriyyəsində əslində tarixi prosesin dövrləşdirilməsinə deyil, mədəni supersistemlərin təsnifatının aparılmasına səy göstərilmişdir. Əgər dövrləşdirilmədə tədqiqatın gedişi başlıca olaraq diaxron istiqamətdə aparılırsa, təsnifatda təhlillər daha çox sinxron müstəvidə həyata keçirilir. Eyni zamanda həm dövrləşdirilmənin, həm də təsnifatın aparılmasının bir ortaq vəzifəsi vardır - tarixi idrakın hər iki metodu xüsusiləri öyrənməklə ümumi qanunauyğunluğu üzə çıxarmağa imkan verir ki, onun da əsasında konkret tarixi hadisələrin və ya proseslərin izah olunmasına, sosiomədəni sistemlərin təşəkkülü və inkişafı məsələlərinin dərkinə cəhd edilir. Bu məntiqdən çıxış edərək, əvvəlki tədqiqat işində iddiaçı tərəfindən irəli sürülən bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezasının konkret elmi faktlara istinadən əsaslandırılmasına səy göstərildi.[103] Növbəti mərhələdə isə, yəni hazırkı dissertasiya işində ümumidən, yəni elmi faktlar zəminində əsaslandırılmış hipotezadan irəli gələrək, tarixi prosesin aktiv subyektləri kimi çıxış edən müxtəlif tipli sosiomədəni sistemlərin təşəkkülünün və inkişaf dinamikasının öyrənilməsinə cəhd olundu.

---

[102] Шпенглер, О. Закат Европы / О. Шпеглер. – Новосибирск: Наука, – 1993. – 592 с.
[103] Hacıyev, R.S. Tarixi prosesin inkişaf dinamikası və ya qloballaşmaya aparan intellektual təkamül yolu / R.S. Hacıyev. − Bakı: Xəzər Universiteti, − 2015. − 352 s.

Gəldiyimiz nəticələrə istinadən hesab edirik ki, tərəfimizdən irəli sürülən bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezası tarixi prosesdə ardıcıl şəkildə təşəkkül tapan və onun aktiv subyektləri kimi çıxış edən sosiomədəni sistemlərin yaranması səbəblərinin ziddiyyətsiz şəkildə izahına imkan verir. Əvvəlki paraqrafın məzmunu göstərdi ki, hazırda elmə məlum olan ictimai inkişaf konsepsiyaları və onların ehtiva etdiyi dövrləşdirilmələr əsasında tarixi prosesdə mərhələli və ardıcıl şəkildə təzahür etmiş qlobal əhəmiyyətli sosiomədəni hadisələrin meydana gəlməsi səbəbini ziddiyyətsiz şəkildə izah etmək mümkün olmur. Bu baxımdan sonuncu paraqrafda dissertasiyanın gedişi boyu əldə etdiyimiz qənaətlər bir daha nəzərdən keçirildi. Nəticədə, irəli sürdüyümüz hipoteza əsasında tarixi prosesdə müxtəlif tipli sosiomədəni sistemlərin təşəkkül tapması səbəbləri daha lakonik şəkildə və xronoloji ardıcıllıqla işıqlandırıldı. Təhlillərimiz nəticəsində bir daha aydınlaşdıra bildik ki, tarixi prosesdə ardıcıl şəkildə meydana gələn müxtəlif tipli sosiomədəni sistemlərin nə vaxt və necə yaranması səbəbini, onların inkişaf dinamikasının xüsusiyyətlərini bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezası vasitəsilə ziddiyyətsiz şəkildə izah etmək mümkündür.

**Dissertasiyanın əsas məzmunu və tezisləri tədqiqat mövzusu üzrə müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır**:

1. İntellektual inkişafın yaş dövrləşdirilməsinə dair // − Bakı: Dirçəliş - XXI əsr jurnalı, – 2005. Noyabr 93, − s. 164-170.

2. Проблема смысла жизни / Р.С. Гаджиев. – Баку: Текнур, – 2007. – 158 с.

3. Homo sapiensin təşəkkülünə dair // − Bakı: Fəlsəfə (elmi-nəzəri jurnal). AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, − 2008. №1(10), − s. 65-71.

4. Qloballaşmanın mahiyyətinə dair // −Bakı: Fəlsəfə. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, − 2009. №1-2(13), − s. 73-80.

5. “Sosiomədəni hadisə” və “sosiomədəni sistem” anlayışları (P.Sorokinin sosioloji baxışları əsasında) // − Bakı: Fəlsəfə (Beynəlxalq elmi-nəzəri jurnal). AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, − 2010. №1(14), − s.60-65.

6. Demoqrafik problemin bəzi aspektləri haqqında // − Bakı: Elmi əsərlər. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, − 2010. №1(14), − s. 38-43.

7. Qloballaşmanın səciyyəvi xüsusiyyətlərinə fəlsəfi baxış // − Bakı: Qloballaşma və informasiya cəmiyyətinin problemləri (elmi məqalələr toplusu). AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, − 2011. − s. 93-100.

8. Azərbaycan xalqının milli şüurunun formalaşmasında milli identikləşmənin rolu // − Bakı: Elmi əsərlər. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, − 2011. №1(16), − s. 52-57.

9. Nikahın və ailənin mənşəyi haqqında (sosial-fəlsəfi təhlil) // YUNESKO-nun təsis etdiyi “Ümumdünya fəlsəfə günü”nə həsr olunmuş Beynəlxalq elmi nəzəri konfransın materialları, − Bakı: Təknur, − 2011. − s. 109-120.

10. Hacıyev, R.S. Etnos anlayışına dair // − Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası . AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, − 2011. № 1, − s. 206-212.

11. Sosiomədəni sistemlərin tipoloji təsnifatına dair // − Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, − 2011. № 2, − s.198-204.

12. К обоснованию гипотезы о возрастной периодизации интеллектуальной эволюции человечества // − Bakı: Elmi əsərlər (Beynəlxalq elmi-nəzəri jurnal). AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, − 2011. №2(17), − s.67-74.

13. Ümumbəşəri tarixi inkişafın müasir vektoru // − Bakı: Sivilizasiya (elmi-nəzəri praktik jurnal). Bakı Avrasiya Universiteti, − 2012. № 1, − s.29-36.

14. Роль лидеров в диалоге культур в эпоху глобализации // “Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf” mövzusunda keçirilmiş Beynəlxalq konfransın materialları, – Bakı: Təknur, – 21-22 dekabr, – 2012, – s. 39-42.

15. “Xalq” anlayışına dair (sosial-fəlsəfi təhlil) // − Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, − 2012. № 1, − s. 153-159.

16. Гаджиев, Р.С. О глобализме и глобализации // Навстречу XXIII Всемирному философскому конгрессу: философия как исследование и образ жизни (программа и материалы докладов международной конференции), – Казань: Казанский государственный энергетический университет, – 26-27 апреля, – 2013, – с. 186-187.

17. “Millət” anlayışına dair (sosial-fəlsəfi təhlil) // − Bakı: Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, − 2013. № 1, − s. 147-153.

18. Hajiyev, R.S. On substantiation of hypothesis of age periodization in intellectual evolution of humanity // XXIII World congress of philosophy: Philosophy as Inquiry and way of life, University of Athens, School of philosophy, Athens. – 04-10 august, – 2013. – p. 270.

19. Глобализация как основной вектор развития цивилизации // Инновационный университет: Философия – Наука – Управление. XX лет философскому факультету НГУ: Материалы Всероссийской научной конференции, – Новосибирск: Новосиб. гос. ун-т. – 22-25 мая, – 2013, – с. 102-104.

20. Qloballaşma: xalq və millətin inkişafı məsələsinə dair // Qloballaşma və informasiya cəmiyyəti (sosial-fəlsəfi aspektlər). AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Kollektiv monoqrafiya. – Bakı: Təknur, – 2013, – s. 38-46.

21. Гаджиев, Р.С. К типологической классификации основных этнических общностей // – Саратов: Известия Саратовского ун-та. Новая сер. Сер. Философия. Психология. Педагогика. – т. 13. – 2013. Выпуск 3, – с. 11-15.

22. Hajiyev, R.S. On globalization and globalism // “Dialogue and universalism”: Journal of the international society for universal dialogue. Warszawa, – 2014. №3, –pp. 174-177.

23. Гаджиев, Р.С. О глобализации и глобализме // – Минск: Философия и социальные науки. Белорусский Государственный Университет, – 2014. №2, – с. 43-47.

24. Qəbilənin təşəkkülü haqqında // − Bakı: Elmi əsərlər. AMEA Tarix İnstitutu, − 2014. 51 cild, − s. 3-13.

25. Müasir dövrdə sosial fəlsəfənin predmetinə dair // − Bakı: Sivilizasiya. Bakı Avrasiya Universiteti, − 2014. № 8, − s. 15-21.

26. Гаджиев, Р.С. К содержанию понятия этнос (социально-философский анализ) // – Новосибирск: Научный журнал «Серия Философия», Новосибирский Государственный Университет, – 2015. №1, – с. 54-60.

27. Об одной закономерности исторического процесса // Философия. Толерантность. Глобализация. Восток и Запад – диалог мировоззрений: тезисы докладов VII Российского философского конгресса. – Уфа: РИЦ БашГУ, – в 3 томах, – т. II. – 6-10 октября, – 2015, – с. 300-301.

28. Tarixi prosesə daha bir baxış (sosial-fəlsəfi təhlil) // – Bakı: Elmi əsərlər (Beynəlxalq elmi-nəzəri jurnal). AMEA Fəlsəfə və Hüquq İnstitutu,– 2015. №2(25), – s. 62-69.

29. Tarixi prosesin inkişaf dinamikası və ya qloballaşmaya aparan intellektual təkamül yolu / R.S. Hacıyev. − Bakı: Xəzər Universiteti, − 2015. − 352 s.

30. Hajiyev, R.S. Multiculturalism as a condition of contemporary intercultural dialogue / “Values and ideals: theory and praxsis”. International Society for Universal Dialogue, XI World Congress, Poland: Institute of Philosophy and Sociology of the Polish Academy of Sciences and Philosophy for Dialogue Foundation, Warsaw. – 11-15 July, – 2016, – pp. 59-60.

31. Tarihsel süreçin belirli bir kanuna uygunluğu konusu // IV Uluslararası Tarih Egitimi Sempozyumu. Bildiri Kitabı: Türkiye, Mugla Sıtkı Koçman Universiteti, – 1-3 Eylül, – 2016, – s.111-117.

32. Проблема соотношения мультикультурализма и интеграции в обществе // Multikulturalizmin Azərbaycan modeli: fəlsəfi, sosioloji və hüquqi baxış. Beynəlxlq elmi konfransın materialları, – Bakı, – 2016, – s. 314-319.

33. Философский анализ исторического процесса: в поисках закономерности // – Элиста: Научный журнал Вестник Калмыцкого Университета, – 2016. №3(31), – с. 86-92.

34. Национальная культура в контексте воздействий глобализма // Фундаментальные и прикладные исследования: современные научно-практические решения и подходы: сборник материалов I-й Международной научно-практической конференции. – Баку - Ужгород - Дрогобыч: Посвит, – 27-28 октябрь, – 2016, – с. 58-60.

35. Avropanın mədəniyyətlərarası dialoq probleminə Azərbaycan multikulturalizmi prizmasından baxış // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş “Azərbaycanşünaslığın aktual problemləri” VIII beynəlxalq elmi konfransın materialları. − Bakı: Mütərcim, – 4-5 may, − 2017, − s. 206-209.

36. “Sosiomədəni sistem” anlayışının məzmununa dair // Bakı: Elmi əsərlər (Beynəlxalq elmi-nəzəri jurnal). AMEA Fəlsəfə İnstitutu, − 2017. №1(28), − s.78-84.

37. Sosiomədəni sistemlərin təsnifatına dair (sosial-fəlsəfi təhlil) // Bakı: Elmi əsərlər (Beynəlxalq elmi-nəzəri jurnal). AMEA Fəlsəfə İnstitutu, − 2017. №2(29), − s.23-31.

38. Sivilizasiya anlayışının məzmununa dair // − Bakı: İlahiyyat fakültəsinin elmi məcmuəsi. Bakı Dövlət Universiteti, − 2017. № 28, − s. 197-207.

39. İlk sivilizasiyaların təşəkkülü məsələsinə dair (sosial-fəlsəfi təhlil) // − Bakı: İlahiyyat fakültəsinin elmi məcmuəsi. Bakı Dövlət Universiteti, − 2018. № 29, − s.97-107.

40. Tarixi prosesin dövrləşdirilməsinə dair əsas konsepsiyaların təhlili // Tarixin fəlsəfəsi: retrospektiv və perspektiv (məqalələr toplusu), − Bakı: Azərbaycan, − 2018. − s. 245-260.

41. R.S. Another view to the history of mankind // V Uluslararası Tarih Egitimi Sempozyumu. Tam metin bildiriler, İstanbul / Türkiyə, – 10-12 mayıs, – 2018, – s. 202-207.

42. О содержании социокультурных систем // – Москва: Вопросы философии, – 2018. №11, – с. 16-24.

43. Tarixi prosesin dövrləşdirilməsinə dair eksternalist istiqamətli nəzəriyyələrin fəlsəfi təhlili // – Bakı: Elmi əsərlər (Beynəlxalq elmi-nəzəri jurnal). AMEA Fəlsəfə İnstitutu, – 2018. №2(31), – s. 90-95.

44. Erkən ibtidai icmanın təşəkkülü məsələsinə dair (sosial-fəlsəfi təhlil) // "Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar" mövzusunda I Beynəlxalq elmi konfransın materialları, − Bakı: Nurlan, − 29-30 noyabr, − 2018, − s. 513-521.

45. Hajiyev, R.S. On a regularity of the intellectual evolution of mankind // – Sofia: Balkan Journal of Philosofy, – 2020. №2(12), – pp. 99-110.

Dissertasiyanın müdafiəsi 04 noyabr 2021 il tarixində saat 11⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143. Bakı şəhəri, Hüseyn Cavid prospekti 115, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 04 oktyabr 2021 il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.09.2021
Kağızın formatı: A5
Həcm:91,046
Tiraj: 100